**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN**

**ZAQATALA FİLİALI**

FAKÜLTƏ: İqtisadiyyat və menecment departamenti

KAFEDRA: İqtisadiyyat və idarəetmə

İXTİSAS: Turizm işinin təşkili

Müdafiəyə buraxılır:

"____" "_________" 2025-ci il

Bölmə rəhbəri: ________________________

**BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ**

# BURAXILIŞ İŞİ

**MÖVZU: QARABAĞ REGİONUNDA TURİZMİN DAYANIQLI İNKİŞAFI PROBLEMLƏRİ**

**QRUP: TT12-21**

**TƏLƏBƏ: Sadıqova Gülnar Sadıq qızı**

**ELMİ RƏHBƏR: b/m. İsfəndiyarova Ülkər**

**ZAQATALA – 2025**

# MÜNDƏRİCAT

**QARABAĞ REGİONUNDA TURİZMİN DAYANIQLI İNKİŞAFI PROBLEMLƏRİ**

**GİRİŞ** .................................................................................................... 3

**I FƏSİL. AZƏRBAYCAN TURİZM SEKTORUNDA QARABAĞ REGİONUNUN YERİ**

1.1. Qarabağ regionunun turizm potensialı.................................................... 5
1.2. Qarabağ regionunda mövcud turizm infrastrukturu...............................11

**II FƏSİL. DAYANIQLI TURİZM KONSEPSİYASI VƏ QARABAĞDA MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ**

2.1. Dayanıqlı turizm anlayışının nəzəri aspektləri ..................................... 19
2.2. Qarabağda dayanıqlı turizm tətbiqinin mövcud vəziyyətinin təhlili..................... 25

**III FƏSİL. QARABAĞ REGİONUNDA DAYANIQLI TURİZM İNKİŞAFI**

3.1. Dayanıqlı turizm inkişafında beynəlxalq təcrübə................................... 33
3.2. Qarabağda dayanıqlı turizmin inkişaf perspektivləri ............................ 35

**NƏTİCƏ** ................................................................................................ 42

**ƏDƏBİYYAT** ....................................................................................... 48

# GİRİŞ

***Tədqiqatın aktuallığı:*** Qarabağ regionu Azərbaycanın ən mühüm turizm potensialına sahib olan ərazilərindən biridir. Zəngin tarixi, mədəni irsi və gözoxşayan təbiəti ilə əsrlər boyu müxtəlif sivilizasiyaların kəsişmə nöqtəsi olmuşdur. Ancaq, uzunmüddətli münaqişələr və hərbi qarşıdurmalar nəticəsində bölgənin infrastrukturu ciddi şəkildə zərər görmüş, mədəni və təbii irsi əhəmiyyətli dərəcədə zədələnmişdir. Bu səbəbdən, Qarabağda turizmin inkişafı və onun davamlı həlli üçün hərtərəfli planlaşdırma və sistemli yanaşma tələb olunur.

Dayanıqlı turizm, təbiətin və mədəni irsin qorunmasına, yerli icmaların sosial-iqtisadi inkişafına və turizm fəaliyyətinin ətraf mühitə zərərli təsirinin minimallaşdırılmasına yönəlmiş bir yanaşmadır. Bu yanaşma yalnız turizm sektorunun inkişafını hədəfləmir, eyni zamanda yerli sakinlərin həyat səviyyəsinin yüksəldilməsinə imkan yaradır. Qarabağ ərazisində dayanıqlı turizmin inkişafı, təbii mühitin qorunması, bərpa olunan ərazilərin ekoloji cəhətdən səmərəli istifadəsi və mədəni irsin gələcək nəsillərə çatdırılması baxımından önəmli əhəmiyyətə malikdir.

Eyni zamanda, Qarabağda turizmin inkişafı bir sira sosial və iqtisadi maneələrlə qarşılaşır. Müharibənin təsiri nəticəsində bölgənin infrastrukturu zədələnmiş, ətraf mühitə ziyan dəymiş, bundan əlavə yerli əhalinin rifah səviyyəsi və turizmə olan münasibəti bu sahənin inkişafını çətinləşdirən əsas məsələlərindən biri olmuşdur. Paralel olaraq, turizmin dayanıqlı inkişafını təmin etmək üçün məqsədyönlü strategiyalar və uyğun siyasətlərin tətbiqi, həm yerli icmaların rifahının yaxşılaşdırılmasına, həm də bölgənin iqtisadiyyatına lazımlı dəstək verə bilər.

Diplom işi, Qarabağ bölgəsində dayanıqlı turizmin inkişafının qarşısında duran əsas problemləri və onların aradan qaldırılması üçün mümkün yanaşmaları təhlil edəcəkdir. Araşdırmanın əsas məqsədi, turizm sektorunun uzunmüddətli inkişafını təmin edəcək tədbirlərin, siyasətlərin müəyyən edilməsi, eləcə də, ekoloji, sosial və iqtisadi faktorların nəzərə alınaraq bölgənin gələcək perspektivlərinə müsbət təsir göstərə biləcək həll yollarının irəli sürülməsidir.

***Tədqiqatın məqsədi:*** Tədqiqatın məqsədi Qarabağ iqtisadi rayonunda dayanıqlı turizmin tədqiqi istiqamətlərini müəyyən etmək, mövcud problemləri aşkara çıxarıb həlli yollarını göstərməkdir.

***Tədqiqatın predmeti və obyekti*:** Tədqiqatın predmeti Qarabağ iqtisadi rayonunda turizm sektorundakı problemlərdir. Tədqiqatın obyektini isə Qarabağ iqtisadi zonasında mövcud turizm potensialının tam gerçəkləşdirilməsi, turizmin mövcud vəziyyəti və dayanıqlı inkişaf istiqamətlərinin təhlili təşkil edir.

***Tədqiqatın informasiya bazası və metodologiyası:*** Tədqiqat işinin hazırlanmasında rəsmi sənədlərdən, statistik hesabatlardan, akademik məqalələrdən, hökumət proqramlarından, xarici ədəbiyyatlardan, SWOT analiz cədvəlindən və Qarabağ Regional Turizm İdarəsindən alınan məlumatlardan istifadə olunub.

***Tədqiqat işinin strukturu və onun qısa məzmunu:*** Tədqiqat işi giriş, 3 fəsil, nəticə, təkliflər və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsildə erməni işğalından əvvəl Qarabağın zəngin tarixi, ecazkar təbiəti, dərin mədəni irsi barədə məlumatlar verilmişdir. Bundan əlavə işğaldan azad olunan vaxtdan verilmiş qərarlar, yeniliklər və görüləcək işlər qeyd olunub. İkinci fəsildə ümumi olaraq dayanıqlı turizm haqqında məlumatlar, onun aspektləri və Qarabağ regionunda tədqiqindən danışılıb. Üçüncü fəsildə isə beynəlxalq təcrübələrdən yararlanaraq Qarabağda dayanıqlı turizmin inkişafı təmin etmək, müasir infrastruktur quruculuğu və inkişaf perspektivlərindən söhbət gedir.

# I FƏSİL. AZƏRBAYCAN TURİZM SEKTORUNDA QARABAĞ REGİONUNUN YERİ

## 1.1. Qarabağ regionunun turizm potensialı

Azərbaycan hələ qədim dövrlərdən bəri səyyahların, dərvişlərin, zəvvarların və yeni bilik axtarışında olan insanların diqqətini cəlb etmişdir. Ölkənin təbii sərvətlərlə zənginliyi, özünəməxsus iqlim şəraiti, flora və faunası, eyni zamanda şərqdən-qərbə və qərbdən-şərqə keçən karvan yolları üzərində yerləşməsi, Azərbaycanı həmişə diqqət mərkəzində saxlamışdır. Məhz buna görə hələ orta əsrlərdən istər Şərq, istərsə də Qərb xalqlarının nümayəndələri, ilk növbədə müxtəlif peşə sahibləri, məsələn, səyyahlar, tədqiqatçılar, yazıçılar Azərbaycanın bölgələri və onun ayrı-ayrı şəhərləri, kəndləri, tarixi abidələri, sərvətləri haqqında kitablar yazmış, qiymətli məlumatlar toplamışlar.

***Təbiəti***. Qarabağ Azərbaycanın ayrılmaz, qədim və tarixi baxımından zəngin bölgələrindən biridir. Kiçik Qafqazın cənub-şərqində yerləşən bu iqtisadi rayon dağlıq, dağətəyi və düzənlik əraziləri ilə fərqlənir. Dağlıq Qarabağ özünə Cəbrayıl, Füzuli, Ağdam, Xocavənd, Tərtər, Xankəndi rayonları həmçinin, Şuşa şəhəri və rayonunu birləşdirir. Qarabağ iqtisadi-coğrafi rayonunun yerləşdiyi ərazi olduqca strateji əhəmiyyətə malikdir. Şimal hissəsi Qarabağ silsiləsinin şimal-şərq ətəklərinə və Murovdağ silsiləsinin cənub yamaclarına söykənir, şərq tərəfi isə Qarabağ və Mil düzənliklərinin qərb sərhədləri ilə əhatə olunur. Region cənubdan və cənub-şərqdən İran İslam Respublikası ilə sərhəd olduğuna görə, həm iqtisadi, həm də logistika baxımından mühüm keçid nöqtəsi hesab edilir. Bu coğrafi mövqe Qarabağın turizm, mübadilə və çatdırılma marşrutlarının inkişafı üçün geniş perspektivlər açır. Coğrafi mövqeyinə görə Qarabağın Ermənistanla yaxın yerləşməsi onun iqtisadi və nəqliyyat əlaqələrinə təsir göstərmiş, bölgənin geostrateji vəziyyətini daha da mürəkkəbləşdirmişdir. Qarabağ iqtisadi-coğrafi rayonunun ümumi sahəsi 7,33 min kvadrat kilometr təşkil edir ki, bu da Azərbaycanın ümumi ərazisinin 8,46%-ni əhatə edir. Əhalisinin sayı isə 653,5 min nəfərdir və bu, ölkə əhalisinin 6,8%-inə bərabərdir. Rayonlar arasında sahə baxımından ən böyük Xocavənd, ikinci isə Füzuli rayonudur. Əhali sayına görə isə Ağdam və Füzuli rayonları ön sıralarda yer alır. Bu bölgə strateji

və iqtisadi baxımdan mühüm potensiala sahibdir və burada həyata keçirilən inkişaf layihələri onun əhəmiyyətini daha da artırır. (Soltanova, 2015, s. 340).

İşğaldan əvvəl Qarabağ bölgəsinin iqtisadiyyatı əsasən kənd təsərrüfatı üzərində qurulmuşdu. Üzümçülük, taxılçılıq, meyvəçilik, pambıqçılıq və tütünçülük ən əsas sahələr idi. Bundan əlavə, bölgədə kartof, bostan-tərəvəz məhsulları da yetişdirilir və geniş tut bağları yaradılaraq baramaçılıq inkişaf etdirilirdi. Heyvandarlıq da mühüm rol oynayırdı—düzənlik sahələrdə ətlik-südlük istiqaməti, dağlıq ərazilərdə isə ətlik-yunluq heyvandarlıq geniş yayılmışdı. Bölgədə sənaye isə əsasən kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olurdu. Bütün bu sahələr Qarabağın iqtisadi inkişafına ciddi xidmət verirdi və bu gün də onların bərpası və yenidən qurulması istiqamətində işlər aparılır (Soltanova, 2015, s. 345).

Ağdam ərazisinin relyefi, əsasən, düzənlikdən və qismən dağlıq ərazilərdən ibarətdir. Maksimal hündürlüyü 1365 metrə çatır. Cəbrayıl rayonu başlıca olaraq, İncəçöl və Gəyan çölü ərazilərində maili düzənliklərdən ibarətdir. Bu rayonun cənub hissəsində iqlim daha quraq və isti olur, burada yarımsəhra və quru çöl iqlimi hakimdir. Şimal bölgəsində isə hava daha mülayimdir, yayı quraq keçsə də ümumi iqlimi daha yumşaqdır. Təbii coğrafi bölgələr öz torpaq quruluşuna görə müxtəliflik göstərir. Xüsusilə, dağlıq ərazilərdə meşə zonasına uyğun olaraq dağ şabalıdı, adi şabalıdı və qəhvəyi meşə torpaqları geniş sahələri əhatə edir. Füzuli rayonunun relyef xüsusiyyətlərinə əsasən, Araz çayına doğru enən yamaclı düzənliklər, qərb istiqamətində isə alçaq təpəliklər və müxtəlif torpaq növləri (boz, boz-çəmən, şabalıdı çeşidləri, dağ boz-qəhvəyi torpaqlar) diqqət çəkir. Tərtər rayonu isə Kür-Araz ovalığının qərb hissəsində yerləşərək şərqə doğru tədricən alçalan hamar relyefə malikdir. Rayonda mülayim-isti iqlim tipi  üstünlük təşkil edir: qışları quraq, yayları isə quraqlığa meyilli yarımsəhra iqlimi müşahidə olunur. Bu ərazilərdə əsas torpaq tipləri arasında şabalıdı boz, boz-qəhvəyi çəmənli torpaqlar və çəmən-boz torpaq örtüye xarakterikdir (Əliyev, Həsənov, 2023, s. 47).

***İqlimi***. Təbii şəraitə uyğun olaraq, düzənliklərdən yüksək dağlıq ərazilərə qədər müxtəlif iqlim tipləri müşahidə olunur. Alçaq dağətəyi və orta yüksəkliyə malik zonada əsasən, mülayim isti hava şəraiti hökm sürür, qış ayları isə bu zonada nisbətən quraq

keçir. Yüksək dağlıq bölgələrdə isə temperatur kəskin şəkildə aşağı düşür. Qış fəsli soyuq olur, lakin yenə də quraq xarakter daşıyır. Yanvar ayının orta temperatur göstəriciləri düzənlik və dağətəyi ərazilərdə +2°C-dən -0,5°C-yə qədər dəyişir. Yüksək dağlıqda isə soyuqluq -5°C-dən -13°C-yə qədər enir. İyulda isə vəziyyət tamamilə fərqlidir. Düzənliklərdə hava 25-26°C arasında qaynar, yüksəklikdə isə 15-14°C səviyyəsində qalır. Yağıntıların illik yağıntı miqdarı düzən və alçaq dağlıq zonada 500-600 mm arasındadır. Yüksək dağlıqda isə bu rəqəm 800-950 mm-ə çatır. Murovdağ silsiləsinin zirvələrində isə qalın qar örtüyü bəzi illərdə bütün mövsüm ərimәyә bilər. Buradakı çaylara Kür hövzəsinə aid olan Tərtər və Qarqar, eləcə də, Araz hövzəsində yerləşən Köndələnçay çayı aiddir (Soltanova, 2015, s. 346).

Təbii sərvətlər baxımından zəngin bu ərazilər həm yeraltı, həm də yerüstü təbii ehiyatları diqqət çəkir. Xüsusilə müalicə xüsusiyyəti olan mineral sular regionun əsas təbii nemətlərindəndir. Burada sayca 120-dən çox mineral bulaq mövcuddur. Kəlbəcər ərazisindəki Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək; Laçındakı İlıqsu, Minkənd; Şuşada yerləşən Turşsu, Şırlan kimi təbii mənbələr öz müalicəvi keyfiyyətlərinə görə xüsusi əhəmiyyət kəsb edir. Kəlbəcərin İstisu bulaqları optimal qaz-kimya kompozisiyası, yüksək istilik dərəcəsi və zəngin təbii ehtiyatları ilə seçilir. Burada həm müalicəvi məqsədlər üçün sanatoriya, həm də içməli su istehsalı müəssisəsi fəaliyyət göstərib. Şuşadan 17 km aralıda yerləşən Turşsu mənbəyinin suyu keçmişdə xüsusi su kəməri ilə şəhərə yönləndirilirdi. Regionun bitki aləmi də müxtəlifliyi ilə təəccübləndirir. Düzənliklərdə əsasən çöl və yarımsəhra bitki örtüyü təşkil edir. Dağ yamaclarında isə kolluqlar və genişyarpaqlı meşə massivləri yayılmışdır. Burada fıstıq, palıd, vələs kimi ağac növləri üstünlük təşkil edir. Ümumiyyətlə, Yuxarı Qarabağ bölgəsi respublikamızın meşəlik sahələri baxımından önəmli ərazilərindəndir. Ərazinin 30%-i meşələrdən ibarətdir. Qarabağda olan 2000-2300 metr yüksəklikdəki subalp və alp çəmənlikləri ərazidə müxtəlif turizm növlərinin inkişafına yol açır (Soltanova, 2015, s. 346).

Qarabağın turizm potensialı çox zəngindir, belə ki, region turizm sahəsində müxtəlif istiqamətlərin – ekoloji turizm, alp turizmi, qış idman turizmi, sağlamlıqla bağlı turizm növlərinin inkişafı üçün ideal şəraitə malikdir. Qarabağın turizm bölgəsinə

çevrilməsində əsas tələblərdən biri ərazinin təbii gözəlliklər, abidələr və müxtəlif mədəni təcrübələrlə zəngin olmasıdır. Turistlərin marağını saxlamaq və səfərləri bənzərsiz etmək üçün onlara müxtəlif məşğuliyyət formaları-təbiət ekskursiyaları, mədəni tədbirlər, ekoloji marşrutlar kimi fəaliyyətlər təklif edilməlidir. Bu fəaliyyətlər əsasən, təbiət mühiti ilə uyğunlaşdırılmış fiziki aktivlər və mədəni təqdimatlar əsasında qurulur. Xüsusilə, Qarabağda qış turizmi, dağ-kəşfiyyat ekspedisiyalarının və ekoturizm layihələrinin potensialını real şəkildə qiymətləndirmək həmçinin, bu sahələr üçün nəqliyyat, yaşayış və xidmət şəbəkəsinin inkişaf etdirmək hədəflərdəndir. Bütün bunlar turizmin inkişafı üçün geniş perspektivlər yaradır (Sultanova, İmamverdiyeva, 2023).

***Tarixi-mədəni abidələr.*** Tarixi-mədəni abidələrinin zənginliyi ilə fərqlənən Qarabağ bölgəsində beynəlxalq əhəmiyyət daşıyan memarlıq və arxeoloji abidələri mövcuddur. Beynəlxalq əhəmiyyət daşıyan memarlıq abidələrinə Ağdam rayonunun Xaçın Türbəli kəndindəki türbə, Cəbrayıl rayonu ərazisində yerləşən, tarixi izləri özündə əks etdirən 11 və 15 tağlı Xudafərin körpüləri daxil edilir. Arxeoloji qazıntılar nəticəsində ortaya çıxmış və hazırda beynəlxalq əhəmiyyət daşıyan bir sıra abidələr vardır. Abidələr sırasına Füzuli rayonu ərazisində yerləşən Azıx, Tağlar mağaraları, Ağdam rayonunun Əfətli kəndində Çalağantəpə, Quzanlı qəsəbəsində Leylantəpə yaşayış yeri, Ağdam şəhərində olan Üzərliktəpə yaşayış yerləri, Tərtər rayonunda Borsunlu, Xocalı rayonunda Xocalı kurqanları, Cəbrayıl rayonundakı Niftalı kurqanları şamil olunur (Abadov, 2014, s. 176).

Qarabağ iqtisadi regionunda tarixi və mədəni abidələrin sayı çoxluq təşkil edir. Tarixi əhəmiyyət daşıyan bir çox memarlıq abidələri mövcuddur ki, bu abidələrin əsas hissəsini Xocavənd (16 alban məbədi) və Xocalı (6 alban məbədi) rayonları ərazisində yerləşən alban kilsələri təşkil edir. IV-VI əsrlərə aid olduğu hesab olunan alban məbədi Xocavənd rayonunda yerləşir (Süsənlik kəndi). 18-ci əsrdə Şuşada var olmuş hökmdarların evləri, malikanələr, istehkamlar, dini ocaqlar daha çoxdur. Cəbrayıl, Füzuli, Ağdam rayonlarının kecmiş dövr qəsəbələrində tarixi böyük köşk, ibadətgah və fərqli dünya görüşü yerlərinə rast gəlinir. Zəngin və cəlbedici turizm obyektləri məqbərələr, məscidlər, karvansaralar, qüllələr (Ağdam), Azıx mağarası (Füzuli),

Ağgöl qoruğu (Ayrıca), Cavanşir türbəsi və başqalarıdır. Şuşada qədim qala divarları, Qarabağ xanlarının iqamətgahları, Xurşidbanu Natəvanın eksponat evi, M.P.Vaqifin məzarlıq abidəsi, Daşaltı vadisi, Xəzinə Qala təbii oyması, Alban kilsələri turizm üçün cazibədar obyektlərdən olmuşdur. Davamlı olaraq Şuşa müalicəvi istirahət zonası, Şəfa səyahət məkanı, Qarabağ qonaq evi turistlərin ixtiyarına verilmişdir. Lakin, düşmən işğalının təsiri ilə bu mədəni irs məhv edilmişdir. Hətta, əraziyə bağlı nəqliyyat və rabitə kompleksi belə Ermənistanın vandalizmi səbəbindən darmadağın edilmişdir (Məhərrəmova, 2023, s, 240).

***Çaylar.*** Təməli Qarabağ regionundan başlayan çaylar Kürə və ya Araz çayına, yaxud onların hövzəsinə aid olan digər su axınlarına tökülür. Bölgədə yerləşən dağların uca zirvələri bu iki böyük çayın hövzələri arasında suayrıcı təşkil edir. Region çaylarının qidalanması üçün  çox vaxt yağış və qar suları əsas mənbə hesab olunur. Eyni zamanda, çay sularından insanlar əkinlərinin suvarılmasında və heyvandarlıqda istifadə edirlər. Regionun mühüm çaylarından hesab olunan Tərtər və Həkəri çaylarının mənbəsi maqmatik yayladan başlayır və Arpaçayın, Bazarçayın başlanğıcı  isə yaylanın şimal-qərb sahəsində yerləşir. Çayların başlıca qidalanma qaynağı yağış, qrunt və yeraltı suları hesab edildiyindən isti aylarda daşqınlar baş verir. İqtisadi regionun ərazisində yerləşən çaylardan bir qismi də Kiçik Qafqazın dağ silsiləsinin cənub-şərqindən axan Tərtərçay, Xaçınçay, Qarqarçay, Həkəriçay, Oxçuçaydır. Çayların əhəmiyyətini artıran əsas məqam isə Mil və Qarabağ düzlərinin suvarılmasında istifadə edilmələridir (Məmmədov, 2024, s. 57).

***Qoruqlar və xüsusi mühafizə olunan ərazilər: Bəsitçay dövlət qoruğu*** – Azərbaycan Respublikasının 4 iyul 1974-cü il tarixli qərarına əsasən, Zəngilan rayonu ərazisində təşkil olunmuşdur. Qoruq ölkənin cənub-qərb hissəsində, Bəsitçayın mənsəbində yerləşir. Əsasən, nadir təbii çinar meşələrinin  qorunub saxlanması məqsədi daşıyır. Hazırda qoruğun ümumi sahəsi 107 hektar təşkil edir. Ərazinin uzunluğu 15 kilometr, eni isə müxtəlif mənbələrə görə 150-200 metr arasında dəyişir. Bəsitçay çayı 44 kilometr məsafəyə qədər uzanır və su toplayan hövzəsinin sahəsi 354 $km^2$-dir. Çay Zəngəzur silsiləsindən başlayaraq Araz çayı ilə birləşir. Bölgənin iqlimi

çinar meşələrinin təbii şəraitdə bərpası və inkişafı üçün olduqca əlverişlidir. Qoruq ərazisinin təxminən 100 hektarı saf çinar ağaclarından ibarətdir (İmanlı, 2024).

***Qaragöl dövlət qoruğu*** – 1987-ci ildə təsis edilmişdir. Bu qorunma zonası Laçın və Gorus rayonlarının sərhəd zonasında, dəniz səviyyəsindən 2658 metr yüksəklikdə yerləşir. Qoruğun bütün sahəsinə 240 hektar ərazi daxildir. Qaragölün səthi oktyabrın ikinci yarısından aprelin sonuna qədər demək olar ki, buzla örtülü olur. Dövlət qoruğu oktyabr ayının ikinci yarısından aprelin sonlarına kimi donmuş vəziyyətdə olur. Burada qar örtüyünün qalınlığı 40-45 santimetr arasında dəyişir. Ekoloji qorunan ərazidə 102 bitki qeydə alınıb ki, bunlar da 68 cins və 27 fəsiləyə aid bitkilərdən ibarətdir (Ağasiyev, Osmanova, 2024, s. 2510).

***Laçın dövlət yasaqlığı*** – 1961-ci ilin noyabr ayında Laçın rayonu ərazisində yaradılmışdır. Yasaqlığın məqsədi burada yaşayan canlılar aləmini qorumaq və artırmaqdır. Bu yasaqlıqda çöl maralı, qaya keçisi, vəhşi donuzu, meşə ayısı və digər vəhşi heyvanlar məskunlaşıb. Quş növləri arasında isə turac və kəklik kimi faunaya xas növlərə rast gəlinir. Ümumi sahəsi 21,4 hektar olan bu ərazi, orta və yüksək dağlıq relyefə malikdir və təbii bioloji landşaft baxımından rəngarəngdir. Yasaqlıq ərazisində torpaq örtüyü müxtəlif tiplərlə təmsil olunur. Burada əsasən aşağıdakı torpaq növləri geniş yayılmışdır: təbii nazik təbəqəli çimli torpaqlar, dağ-çəmən və tipik karbonat qalıqlı torpaqlar, bozqırlaşma əlamətləri göstərən qonur rəngli dağ-meşə, tipik və quru iqlim şəraitinə uyğunlaşmış qəhvəyi rəngli dağ-meşə torpaqları. Bu torpaq örtüyü bölgənin canlılar aləminin zənginliyi və ekoloji tarazlığın saxlanması baxımından böyük önəm daşıyır (Kərimov, 2024, s. 108).

***Qubadlı yasaqlığı*** – 1969-cu ilin iyunda Qubadlı və Laçın rayonlarının ərazilərində təbii qorunma zonası kimi yaradılıb. Bu yasaqlıq coğrafi olaraq Qubadlı rayonunun şimal hissəsini və Laçın rayonunun cənubunu əhatə edir. Əsasən, dağlıq və bozqır ərazilərdən ibarətdir. Buranın yaranmasında məqsəd bölgə də yaşayan heyvan və quşları, xüsusilə, cüyür, çöl donuzu, qırqovulu və s. mühafizə etməkdir. Ümumi sahəsi 20 min hektar olan bu müdafiə olunan ərazi dövlət üzrə yasaqlıqların 8,2%-ni təşkil edir. Burada seyrək meşəlik, kolluqlar və meşədən çıxıb bozqıra çevrilmiş sahələr üstünlük təşkil edir. İqlimi mülayim olsa da, amma qışı quraq keçir. Torpaq

sahəsi qırmızı palıd və vələs ağacları ilə örtülüdür. Həmçinin, ardıc, vəhşi alma, itburnu, böyürtkən kimi bitki növləri də çox intişar edib. Bioloji balans burda heyvanlar aləminin yaşamasına uyğundur (Ağbabalı, Yunusoğlu, 2024, s. 245).

***Daşaltı yasaqlığı*** – 1988-ci ildə bu bölgənin Şuşa və Xocalı ərazisində nadir təbiət zonalarını qorumaq üçün yaradılıb və sahəsi 450 hektardır. Bu əraziyə Şuşa dağlıq meşə zonası, Kirs dağətəyi zonası, Cıdır yarış meydanı, Xocalı ərazisinin qədim müdafiə hasarları daxildir. Şuşa şəhəri və ətrafı regionun ən gözəl, əsrarəngiz məşhur yerlərindəndir. Ərazi zəngin bitki örtüyünə malikdir. Burada təbiətin göz oxşayan bitkiləri olan məz, ipək akasiyası, ağcaqayın, cökə, fıstıq ağacı, yemişan, zoğal, müşmula, alma, gavalı kimi çeşidli bitki örtüyü inkişaf etmişdir. Ərazi müalicəvi flora bitkiləriylə zəngindir. Yasaqlıqda həm müxtəlif yırtıcı, həmdə ki təbiətə gözəllik verən quş və heyvan növləri vardır.

***Arazboyu dövlət yasaqlığı*** – Tuqay meşələrinin bərpası üçün 1993-cü ildə formalaşdırılmışdır.Bu yasaqlıq 2200 hektar sahəni əhatə edir. Bəsitçay dövlət qoruğundan asılı olaraq, İranla həmsərhəd Zəngilan ərazisində, Araz çayının ətrafında yerləşir və 1993-cü ilin iyun ayında əsası qoyulmuşdur. Yasaqlığın uzunluğu 50 km, eni isə 50-100 metr, digər mənbələrdə isə 200-250 metr aralığında dəyişir. Ümumi sahəsi isə 5 min hektardır. Bu yasaqlığın məqsədi mövcud ekosistemin qorunmasını təmin etməkdir. Ərazi isti yaylı, mülayim qışlı iqlim şəraitinə sahibdir. İllik temperatur ortalaması 20-25°, iyun-iyul aylarında isə 35-38° olur. Torpağı münbit gilli olub, suya yüksək tələbatı olan ağaclarla örtülmüşdür. Ekoloji amillər burada bitkilərin böyüməsi üçün əlverişli ekosistem yaradır (Orucova, 2024, s. 46).

## 1.2 Qarabağ regionunda mövcud turizm infrastrukturu

Bugün Azərbaycan xalqı tarixi ədalətin bərqərar olduğu, xalqımızın qürur mənbəyinin gücləndiyi və xalqla iqtidar arasında güclü tellərin bağlandığı, millətin və dövlətin bir yumruq kimi birləşdiyi şərəfli bir dövr yaşayır. Eyni zamanda, rəşadətli ordumuz torpaqlarımızı qorumağa və düşmənləri məğlub etməyə qadirdir. Məhz o dövrdə ölkəmizin qüdrətini və gücünü daha da artırmaq, milli sərvətlərindən səmərəli

istifadə etmək, məhsuldar iqtisadi inkişaf və tərəqqi modelini formalaşdırmaq, inkişaf etdirmək vacib şərtlərdəndir.

2020-ci il sentyabrın 27-sində başlayan 44 günlük Böyük Qarabağ Zəfərindən sonra ölkəmizin iqtisadi inkişaf modelinin yeni reallıqlara uyğun olaraq təkmilləşdirilməsi, idarəetmə formalarının daha çevik və səmərəli tənzimlənməsi zəruri olmuşdur. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini, işğal olunmuş torpaqların azad edilməsini, düşmən ordusunun məhv edilməsi və Ermənistan rəhbərliyinin təslimçi sazişə imza atmasını diqqətə almadan, revanşist qüvvələr və onların dünya ölkələrindəki tərəfdarları, ikili standartlara əsaslanan siyasətçilər və bəzi beynəlxalq təşkilatlar hələ də bu gerçəkliklə barışmaq istəmir və müxtəlif təxribatlara əl atmaqda davam edirlər. Belə bir şəraitdə regionun idarəetmə strukturunun təkmilləşdirilməsi, tarixi ədalətə və faktlara söykənmiş qərarların verilməsi, işğaldan azad olunmuş ərazilərin sürətlə dirçəldilməsi, infrastrukturun yaradılması və Böyük Qayıdışın tezləşdirilməsi vacibdir.

Dövlət başçısı mürəkkəb qlobal siyasət və iqtisadi şəraitdə strateji əhəmiyyətə malik mühüm bir fərman imzalayaraq, ölkədə iqtisadi rayonların yeni bölgüsünü təsdiq etmişdir. Bu qərarla ölkə iqtisadiyyatının idarə olunması üçün yeni mexanizmlərin yaradılmasına və mövcud strukturun müasir tələblərə uyğun şəkildə yenilənməsinə start verilmişdir. Belə ki, ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə ölkədə iqtisadi rayonların yeni bölgüsü təsdiq edilmişdir (“Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikasının Prezidentinin Fərmanı. Bakı şəhəri 7 iyul 2021-ci il). Bu sənəddə vurğulanır ki, işğaldan azad olunmuş ərazilərin bərpası, gələcək inkişafın təmin olunması, zəruri infrastrukturun qurulması və əhalinin doğma torpaqlarına qayıdışını dəstəkləmək məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilir. Yeni iqtisadi rayonlaşma konsepti isə bu tədbirlərin daha verimli və hədəfli şəkildə icrasına töhfə verəcəkdir. Məlumdur ki, Qarabağ bölgəsi yarandığı dövrdən özünəməxsus xüsusiyyətləri ilə, məşğuliyyət formaları, təbii ehtiyatları, zəngin tarixi-mədəni irsiylə daha çox yadda qalmışdır.

Azərbaycan ərazisində ehtiyatların müxtəlifliyi, inkişaf səviyyəsi və perspektivliyinə görə seçilən 8 turizm bölgəsi vardır. Buraya Bakı-Abşeron, Quba-

Xaçmaz, Lənkəran-Masallı, Şəki-Zaqatala, Gəncə-Qazax, Naxçıvan və Qarabağ turizm bölgələri daxildir. Qarabağ turizm bölgəsi azərbaycanın cənub-qərbində, Bakı-Şuşa turist marşrutunun üstündədir. Burada turizm ixtisaslaşması sağlamlıq-müalicə, dərketmə istiqamətindədir. Qarabağ bölgəsində turizm obyektləri arasında balneoloji Şuşa dağ-iqlim kurortu, Gülablı İstirahət zonası, məqbərələr, məscidlər, karvansaralar, qüllələr, Azıx mağarası (Füzuli) , Xudafərin körpüləri (Cəbrayıl), İstisu balneoloji kurortu (Kəlbəcər), "Qalalı" qalası, Göy qala, Cavanşir türbəsi, Laləzar körpüsü və Ağgöl var. Şuşa şəhəri, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşərək bölgənin əsas turizm mərkəzlərindən biridir. Bu ərazidə alban məbədləri, Şuşa Tarixi-Memarlıq Qoruğuna daxil olan qala divarları, Qarabağ xanlarının iqamətgahları, Xurşidbanu Natəvanın ev muzeyi, Molla Pənah Vaqifin məqbərəsi, Daşaltı uçurumlu dərəsi, Şuşa və Xəzinəqala mağaraları kimi tarixi və təbiət abidələri mövcuddur. Şuşa sanatoriya-kurort birliyi, "Şəfa" turizm kompleksi, "Qarabağ" mehmanxanası uzun illər turistlərin diqqət və xidmətində olmuşdur. Lakin, Ermənistanın işğalı zamanı bu obyektlərin əksəriyyəti dağıdılıb tanınmaz vəziyyətə gəlmişdir (Məhərrəmoğlu, 2022, s. 6). Ümumilikdə, Azərbaycan Respublikasında o cümlədən, Qarabağ bölgəsində turizmin inkişafı bu sahədə geniş miqyasda ədəbiyyatların yaranmasına gətirib çıxarmışdır. Turizmin təbliği məqsədilə azərbaycan, rus, ingilis dillərində müxtəlif elmi-kütləvi ədəbiyyat, fotoalbomlar, bələdçi kitabçalar, buklet, xəritə-sxemlər nəşr edilmişdir.

***Mehmanxana və hava limanı***. İkinci Qarabağ müharibəsinin başa çatmasından qısa müddət sonra Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyeva işğaldan azad edilmiş ərazilərə səfərlər etmişlər. Bu səfərlər zamanı həmin bölgələrdə bərpa və yenidənqurma işlərinin başlanılması ilə bağlı tapşırıqlarını vermişlər. Şuşa şəhərində yenidənqurma işlərindən sonra ilk fəaliyyətə başlayan mehmanxana "Xarıbülbül" olub, daha sonra isə "Qarabağ", "Shusha Boutique Hotel" mehmanxanaları açılıb. Prezident İlham Əliyevin bu işə xüsusi diqqət göstərməsi, Qarabağın turizm imkanlarının genişləndirilməsi istiqamətində verdiyi fərman və sərəncamlar da dövlətin bu sahəyə dəstəyinin göstəricisidir. 2021-ci ildə Qarabağ iqtisadi rayonunda 11 mehmanxana və mehmanxana tipli yerləşdirmə müəssisəsi

fəaliyyət göstərirdi: üçü Şuşada, ikisi Tərtərdə, üçü Ağcabədidə, ikisi Bərdədə və biri Füzuli rayonunda yerləşirdi (Sultanova, İmamverdiyeva, 2023). Azərbaycanın işğaldan azad edilmiş əraziləri həmişə gözəlliyi, səfalı yerləri, müalicəvi əhəmiyyətli mineral və isti suları, bulaqları ilə həm yerli, həm də əcnəbi turistlərin diqqət mərkəzində olub. Ərazilərin dağlıq və dağətəyi olması, Şuşa, Kəlbəcər, Laçın, Hadrut və Zəngilanda turizmin inkişafı üçün əlverişli şərait yaradır. Hazırda Şuşada və digər işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma, tikinti-bərpa işləri gedir, yeni otellər tikilir. Füzuli və Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Laçın rayonunda hava limanının tikintisi bölgədə turizmin inkişafına təkan olacaqdır. Artıq Qarabağın bəzi şəhər və rayonlarına xüsusi avtobus reysləri təşkil olunub və turizm sektorundan verilən məlumata görə, nəinki yerli, hətta xarici turistlər belə yerli mədəni irslə tanış olmaq və təbii mənzərələrdən zövq almaq üçün səfərlər planlaşdırırlar.

***Tarixi-mədəni irs***. Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın əsas işğalçılıq məqsədlərindən biri Azərbaycan xalqının maddi-mədəni və milli irsini qəsdən məhv etmək idi. Erməni vandalları tarixən xalqımıza qarşı etnik və mədəni təmizləmə prosesini həyata keçirmişdir. Onlar yer adlarımızı və toponimlərimizi dəyişdirərək mədəni və dini irsimizi özününküləşdirməyə çalışmış, dəyişdirə bilmədiklərini isə tamamilə yandırmış və izini itirmişlər. Bu siyasət sonrakı dövrdə də davam etdirilmiş və 30 il müddətində işğalda saxladıqları Qarabağ və ətraf ərazilərdə də həyata keçirilmişdir. Birinci Qarabağ müharibəsində Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində yüzlərlə mədəniyyət müəssisəsi, kitabxana, məscid, klub və mədəniyyət evi, musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı muzey və muzey filialı, rəsm qalereyası, teatr müəssisəsi, konsert müəssisəsi, mədəniyyət və istirahət parkı dağıdılmış və erməni vandalizminin qurbanına çevrilmişdir. Tədqiqatlar göstərir ki, işğal dövründə Qarabağda islam mədəniyyətinə aid olan bütün məscidlər, abidələr dağıdılmışdır. Erməni millətçiləri torpaqlarımızda türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün məscidlərimizi, dini abidələrimizi yerlə yeksan etmiş və yandırmışlar. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa

şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olmuşdur. Onlar bu abidələri erməniləşdirməyin və qeyri-Azərbaycan abidələri kimi təqdim etməyin mümkün olmadığını anlayaraq bu cür vəhşilikləri törətmişlər. Erməni vandalları Qarabağdakı mədəni abidələrimizi tamamilə məhv etməklə, həm də bölgənin turizm məkanından məhrum etmişlər. Belə ki, Cəbrayıl rayonunda VII-XII əsrlərə aid 11 və 15 tağlı Xudafərin körpüləri, Kəlbəcər rayonundakı Gəncəsar və Xudavənd məbədləri, Ağdam rayonunun Xaçın Türbətli kəndindəki məqbərə, Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən biri – Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalları tərəfindən dağıdılmışdır (Məmmədov, 2022, s. 6). Erməni vandalları azərbaycanlılara aid tarixi mirasları viran qoymaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədini güdüb və bütün milli izlərimizi silməyə çalışıblar.

***Qarabağ muzeyi***. Qarabağın mərkəzində xüsusi bir muzey yaratmaq çox önəmlidir ki, dünya ictimaiyyətinə ermənilərin törətdiyi vəhşilikləri, xəyanətkar əməllərini və terror aktlarını göstərsin. Bu muzey elə təşkil olunmalıdır ki, turistlər oradakı eksponatlarla tanış olduqda, erməni vandalizmi, xəyanəti və Qarabağda törədilmiş dağıntılar barədə dolğun təsəvvür əldə etsinlər. Muzeydə Azərbaycanın tarixi abidələrinin görüntüləri, Qarabağın maraqlı məkanlarının xəritələri, geniş tirajlı bukletlər, həmçinin düşmənin müharibə zamanı istifadə etdiyi patron gilizləri, mərmi qəlpələri, məhv edilmiş və ya qənimət götürülmüş ağır texnika, tanklar, dronlar və digər növ silahlar nümayiş olunmalıdır. Bütün bu eksponatlar Qarabağda törədilmiş dağıntıları və erməni vandalizmini əyani şəkildə canlandırmalıdır ki, gələn qonaqlar bu reallığı hiss edə bilsinlər. Muzey həmçinin gənc nəsil üçün bir maarifləndirmə mərkəzi olmalı, onların tarixi biliklərini artırmalı və milli yaddaşlarını gücləndirməlidir. Bu cür unikal mərkəz həm turizmin inkişafına təkan verə bilər, həm də dünyanın diqqətini bu vacib məsələyə yönəldə bilər (Məlikova-Qurbanova, 2023).

***Nəqliyyat-ictimai xidmətlər***. İşğaldan azad edilən bölgələrdə turizmin inkişafı üçün güclü nəqliyyat infrastrukturu qurulmalı, xüsusilə dağlıq ərazilərdə avtomobil yollarının keyfiyyəti artırılmalıdır. Bu sahədə artıq ciddi addımlar atılıb və işlər uğurla

davam etdirilir. Turizmin inkişafı üçün "Yolumuz Ağdama", "Yolumuz Füzuliyə", "Yolumuz Xocavəndə" kimi marşrutlar hazırlanıb və yaxın vaxtlarda istifadəyə veriləcək. "Yolumuz Qarabağa" layihəsi çərçivəsində Bakı-Şuşa, Bakı-Ağdam, Bərdə-Ağdam istiqamətində səfərlər 2022-ci ildən təşkil olunur. Bakı-Şuşa-Bakı avtobus reysi isə hələlik həftədə iki dəfə həyata keçirilir (Vəliyeva, 2024).

Eyni zamanda, turizm sahəsinə peşəkar kadrların hazırlanması vacibdir. İşğaldan azad olunan ərazilərdə sosial-iqtisadi obyektlər və rabitə sistemlərinin yenidən qurulması da diqqət mərkəzində olmalıdır. Turistlər üçün Qarabağ atlarının yarışlarının təşkili, yeni muzeylərin yaradılması, bank və poçt xidmətləri, turist polisi, mobil şəbəkə və internet təminatı, turizm informasiya mərkəzləri, xidmət sahələri və bələdçi fəaliyyəti kimi mühüm elementlər inkişaf etdirilməlidir. Artıq sərnişinlərin və turistlərin rahatlığı üçün hərtərəfli şərait qurulur. Bu tədbirlər turizmin canlanmasına və bölgənin iqtisadi inkişafına ciddi töhfə verə bilər. Cocuq Mərcanlıda qurulacaq Suvenir İstehsalı Müəssisəsi turistlər və yerli sakinlər üçün geniş çeşidli hədiyyələr təqdim edəcək. Burada milli naxışlarla bəzədilmiş saxsı qablar, kiçik ölçülü xalçalar, əl işləri və digər unikal məhsullar istehsal olunacaq. Bu, həm turizmin inkişafına töhfə verəcək, həm də yerli iqtisadiyyata dinamika gətirəcəkdir.

***Gələcək planlar***. Qarabağ bölgəsinin hər bir rayonu özünəməxsus iqtisadi potensiala və inkişaf imkanlarına malikdir. Bu ərazilər tədricən öz-özünü təmin edə bilən iqtisadi regiona çevrilir. Kəlbəcər hasilat və turizm sənayesi ilə, Ağdam emal sənayesi ilə, Şuşa mədəniyyət və turizm sektoru ilə fərqlənir. Cəbrayıl ticarət və logistika xidmətləri ilə, Qubadlı, Zəngilan, Laçın, Füzuli və Xocavənd isə kənd təsərrüfatı və turizm sahələri ilə yeni iqtisadi mərkəzlər kimi formalaşır.

Bərpa işlərinin əsas məqsədi bölgədə yaşayan insanların rifahını yüksəltmək, iqtisadi canlanma yaratmaq və biznes üçün əlverişli mühit formalaşdırmaqdır. Turizm sahəsinin inkişafı üçün xüsusi konsepsiyalar hazırlanır, əlaqəli infrastruktur mərhələli şəkildə qurulur. Qarabağ iqtisadi rayonları ekoturizm, ekstremal turizm və alpinizm üçün böyük potensiala malikdir. Onun zəngin təbiəti, dağları, dərələri və qoruqları bu sahələrin inkişafına imkan yaradır.

Xüsusilə müalicəvi bulaqların çoxluğu Qarabağın sağlamlıq turizmi baxımından böyük üstünlüklərini göstərir. Turizmin gücləndirilməsi üçün bölgədə geniş yol infrastrukturu qurulur, dəmir yolları çəkilir və üç hava limanı inşa edilib. Bu hava limanları turizmin inkişafında mühüm rol oynayacaq və bölgəyə turist axınını artıracaq. Bütün bu addımlar Qarabağın sosial-iqtisadi inkişafına güclü təkan verəcək (Nağıyev, 2023).

Qarabağ bölgəsi turizm potensialı ilə ölkə iqtisadiyyatının inkişafına böyük töhfə verə bilər. Bu imkanlardan səmərəli yararlanmaq vacibdir. Qarabağın təbii sərvətləri, strateji yerləşməsi və qədim mədəni irsi onu turizm baxımından daha da dəyərli edir. Son dövrlərdə dövlət tərəfindən turizm sektorunun bu bölgəyə cəlb edilməsi üçün mühüm işlər görülür. İşğaldan azad olunmuş Qarabağda tarixi abidələr bərpa edilir, müasir yaşayış infrastrukturu qurulur və dünya təcrübəsinə əsaslanaraq yeni turizm imkanları yaradılır.

Azərbaycan beynəlxalq turizm layihələrində iştirak edir, müxtəlif ölkələrlə təcrübə mübadiləsi aparır. Məqsəd turizmi gəlir gətirən mühüm sektoruna çevirməkdir. Qarabağda turizmin bütün sahələrinin inkişafı üçün əlverişli şərait mövcuddur. Füsunkar təbiəti olan bu diyar ekoturizm, sağlamlıq turizmi, dağ turizmi, aqroturizm və ekstremal turizm üçün ideal məkandır. Sağlamlıq turizmi burada xüsusi əhəmiyyətə malikdir. Şuşada, Kəlbəcərdə, Laçında, Zəngilanda və Ağdamda çoxlu termal mənbələr və mineral bulaqlar var ki, bunların hər biri şəfa qaynağıdır. Keçmişdə Zəngilanda Qotur su sanatoriyası, Kəlbəcərdə dünyaca məşhur İstisu mineral suyu və Ağdamda Şəfa sanatoriyası fəaliyyət göstərirdi. İndi bu ərazilərdə müasir müalicəvi sanatoriyalar və kurort kompleksləri yaradılaraq, Qarabağı sağlamlıq turizmi üzrə beynəlxalq səviyyədə tanınan mərkəzə çevirmək mümkündür. Bu inkişaf ölkəyə daha çox turist cəlb edəcək və regional iqtisadiyyata müsbət təsir göstərəcək.

Gələcəkdə Qarabağda texnologiya və innovasiya mərkəzi – hətta Silikon Vadisinin analoqunu yaratmaq mümkündür. Azərbaycanın illər ərzində Dünya Turizm Təşkilatında, ekoturizm cəmiyyətlərində və sağlamlıq turizmi qurumlarında təmsil olunması bu potensialı daha da artırır. 44 günlük Vətən müharibəsində qazanılan zəfər Azərbaycanın beynəlxalq nüfuzunu yüksəldib və ölkəmizə sərmayə qoymaq istəyən

təşkilatlar turizm quruculuğunda iştirak etməyə maraq göstərirlər. Əgər bu təşəbbüslər paralel şəkildə həyata keçirilsə, 6-8 il ərzində Qarabağda turizmin 85%-ni tam şəkildə formalaşdırmaq olar.

İndi istənilən şəxs rahatlıqla Qarabağa gedə və bölgəni ziyarət edə bilir. Bu şərtlərin yerinə yetirilməsi üçün avtobus turları təşkil olunur, həmçinin Bakıdan Füzuli Hava Limanına uçuşlar həyata keçirilir. Bununla belə, geniş miqyaslı turist marşrutlarının tam istifadəyə verilməsi üçün hələ işlər görülür. Ərazilərin minalardan təmizlənməsi və infrastrukturun qurulması sürətlə davam edir. Bu proses tamamlandıqdan sonra geniş turizm marşrutlarının yaradılması reallaşacaq.

Qarabağın hər bir bölgəsi turizm potensialına malikdir. Təbiəti, tarixi, mədəni irsi, ləziz mətbəxi və müalicəvi mənbələri bu bölgəni ekoturizm, etnoturizm, sağlamlıq, kulinariya və ekstremal turizm mərkəzinə çevirmək üçün böyük imkanlar yaradır. Son illərdə Qarabağ turizmini seçənlərin statistikası əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəlməyə davam edir. Planlı və fasiləsiz nəqliyyat imkanları, yeni infrastrukturun qurulması və mütəşəkkil tur paketlərinin təklifi səfərlərin sayını daha da artırır.

Bölgənin unikal imkanları fərqli turizm marşrutları yaradılmasına şərait yaradır. Laçın və Kəlbəcərdə sürətli axar çaylar və su hövzələri avarçılıq, dalğa qayıqçılığı kimi su idman növlərinin inkişafı üçün əlverişlidir. Qarabağda təbiət parkları, turizm istirahət kompleksləri də yaradılacaq və bu sahədə müvafiq qurumlar ciddi işlər aparır. Yaxın gələcəkdə Qarabağ dünya ölkələrindən turistləri, tələbələri, alimləri və tədqiqatçıları cəlb edən unikal turizm mərkəzinə çevriləcək. Bunun üçün hər birimiz bu missiyaya töhfə verməliyik və Qarabağın inkişafı üçün səylərimizi davam etdirməliyik.

# II FƏSİL. DAYANIQLI TURİZM KONSEPSİYASI VƏ QARABAĞDA MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1. Dayanıqlı turizm anlayışının nəzəri aspektləri

İnsanın həyat keyfiyyəti yaşadığı ictimaiyyətin formalaşdırdığı mühitlə sıx bağlı olduğu halda, cəmiyyətin inkişafı iqtisadi, sosial və ekoloji faktorlarla dolaysız əlaqəlidir. Bununla belə, təbii ehtiyatların məhdud miqdarda olması, planetar inkişaf, demoqrafik böyümə, ekoloji çirklənmə, iqlim anomoliyası, təbii aşınma, torpaq sürüşmələri və təbii fəlakətlər kimi qarışıqlıqlar davamlı ekoloji mühiti təhdid edir və irəlidəki nəsillərin inkişafını sıxışdırır. Bu problemlərin icrası üçün ancaq ekoloji balans və insan inkişafı idarəetmə tətbiqlərinin hazırlanması yetərli deyil. Bu şəraitdə, davamlı inkişafın ümumdünya, coğrafi və milli miqyasda ciddi bir problem kimi araşdırılması, dəyərləndirilməsi məqsədilə çoxsaylı elmi yanaşmalar, prototiplər və metodoloji əsaslar inkişaf etdirilmişdir.

Dayanıqlı inkişaf anlayışı, təbii resursların qorunmasını və uzunmüddətli iqtisadi-sosial balansın təmin edilməsini nəzərdə tutur. İstehsal və istehlak bir-birini tamamlayan mexanizmadır və bu dövriyyənin dözümlü olması üçün ehtiyatların ağıllı idarə edilməsi vacibdir. Uzunmüddətli idarəetmə modeli isə inkişafı məhdudlaşdırmaq deyil, onun daha sistemli və idarəolunan formada aparmaqdır. Davamlı inkişaf uzun müddətli iqtisadi əməliyyatları dəstəkləyir, bütün tərəfdaşlara sosioekonomik fayda təmin edir və resursların ədalətli bölgüsünü təmin edir. Sabit iş imkanı və gəlir imkanlarının yanında sosial məsuliyyət işləri ilə ev sahibi icmalarda yoxsulluğun azaldılmasına kömək edir. Dayanıqlı turizm isə qloballaşmanın gözlənilən mənfi nəticələrinə qarşı mövqe tutmağa çalışan turizm tərəfdaşları arasında önəm qazanan bir anlayışdır. Yerli mədəniyyətlərin qorunduğu, tarixi dəyərlərin yaşadıldığı, təbiətin nizamının və ekoloji tarazlığın pozulmadığı, sağlam bir dünya üçün dayanıqlı turizmə dəstək olunmalıdır (Wang, 2017, s. 53).

Dayanıqlı inkişaf dedikdə, turizm ehtiyatlarına zərər yetirmədən baş verən proseslər anlaşılır. Buna görə də dayanıqlı turizm həm də **davamlı turizm** adlanır. Müasir elmi mənbələrdə davamlı inkişaf anlayışına 60-dan artıq müxtəlif izah verilib.

Maraqlıdır ki, bu ideyanın kökləri 1713-cü ilə qədər uzanır. Alman alimi Hans Karl fon Karlovitsinin özünün meşə təsərrüfatı haqqında yazdığı kitabında (adı: Meşə İqtisadiyyatı) ilk dəfə təbii resursların ağıllı istifadəsi fikrini irəli sürmüşdür. Karlovitsi iddia edirdi ki, ağacların əhəmiyyəti gündəlik çörək qədər vacibdir. Ona görə də meşələrin artırılması ilə ağac materiallarının emalı arasında tarazlıq qorunmalıdır. Onun "İqtisadiyyatı elə qurmalıyıq ki, qıtlıqla üzləşməyək" kimi gələcəyə yönəlmiş fikirləri, təbii sərvətlərin davamlı istifadəsi prinsipini dayanıqlı inkişaf anlayışının əsasına çevirdi. Bu prinsip sonradan Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Komissiya tərəfindən siyasi prioritetlər əsasında yenidən formalaşdırıldı. (Josef, 2013).

1970-ci illərədək inkişaf anlayışı yalnız iqtisadi baxımdan qiymətləndirilirdi. Sosial, ekoloji və mədəni amillər nəzərə alınmamışdı. Çünki o dövrdə inanırdılar ki, iqtisadi artım kifayət edəcək və öz-özünə gəlirin bölüşdürülməsi, uyğunsuzluq, maddi sıxıntı və ekoloji problemlər yox olacaqdır. Lakin sonradan aydın oldu ki, təkcə iqtisadi böyümə həqiqi inkişaf demək deyildir. Məhz bu fikir davamlı inkişaf konsepsiyasının əsasını qoydu. Bu düşüncə ilk dəfə 1987-ci ildə Beynəlxalq Komissiyanın "Ətraf Mühit və İnkişaf" üzrə hesabatında (Brundtland Hesabatı) Qru Harlem Brundtland tərəfindən rəsmi şəkildə irəli sürüldü. (Erdoğan, 2003, s. 99-100). Davamlı inkişaf gələcək nəsillərin ehtiyaclarını təmin etmək qabiliyyətinə zərər vermədən indiki nəslin tələblərini ödəyən bir inkişaf modelidir. Bu yanaşmanın əsasını Brundtland Hesabatında qeyd olunan 5 əsas prinsip təşkil edir:

- hər şeyi bir-biri ilə əlaqələndirən planlaşdırma və strategiyaların tətbiqi;
- təbiətin təməl proseslərinin (su dövranı, torpaq bərpası) qorunmasının əhəmiyyəti;
- insan mədəniyyətinin zənginliyi və təbiətin müxtəlifliyinin saxlanmasının vacibliyi;
- gələcək nəsillər üçün davamlı və məhsuldar sistemlər yaratmaq fikrinin inkişafı;
- dünya resurslarının daha ədalətli bölüşdürülməsi.

Davamlı inkişafın uzunmüddətli tərəqqisinin təməlini təbii resursların mühafizəsi və ağıllı istifadəsi təşkil edir. Bu xüsusilə, təzələnə bilən mənbələrin (məsələn, meşə, su) təbii yenilənmə qabiliyyətini pozmadan onlardan istifadə etmək və

eyni zamanda ekoloji inkişafı qoruyaraq iqtisadi inkişafı dəstəkləmək deməkdir. Bu prinsip ətraf mühitlə uyğunlaşan və gələcək nəsillər üçün resursların qorunub saxlanılmasını təmin edən davamlı bir yanaşmanın əsasıdır.

1995-ci ildə BMT tərəfindən sosial və iqtisadi inkişaf məsələlərinə həsr olunmuş Kopenhagen Sammitində əsas diqqət yoxsulluq, işsizlik kimi sosial problemlərin həlli üzərində cəmləşdirilib. Bu görüşdə müasir dövrdə yoxsulluqla mübarizə üsulları müzakirə olunub. Daha sonra 2000-ci ildə BMT-nin təşəbbüsü ilə 147 ölkənin qatıldığı "Minillik Forum" keçirilib. Bu forumda yoxsulluğun azaldılması yolları və davamlı inkişafın əsas qaydaları üzrə dərin müzakirələr aparılıb. Davamlı inkişaf anlayışı bu konteksdə belə təyin edilmişdir: ekoloji tarazlığı pozmayan, cəmiyyətin davamlı irəliləyişini təmin edən və resursların ağıllı idarə edilməsi əsasında qurulan bir strategiya (Bilalov, Gülalıyev, 2015, s. 42).

Turizm ərazilərində davamlı turizmin inkişafı üçün ekosistem yanaşması önəmli bir metodologiyadır. Bu yanaşma, turizmin ekoloji, iqtisadi və sosial təsirlərini nəzərə alaraq ekosistemlərin qorunmasına və davamlı istifadəsinə yönəlmişdir. Doğrudur, turizm ərazisi ekosistemlərinin səmərəliliyini qiymətləndirmək turizmin iqtisadiyyata birbaşa və dolayı təsirlərini ölçmək üçün vacibdir. Turizm sektoru yalnız iqtisadi fayda gətirməklə kifayətlənmir, həm də sosial və ekoloji cəhətdən davamlı olmalıdır. Ərazidə davamlı turizmin inkişafı üçün aşağıdakı amilləri nəzərə almaq vacibdir:

**1. İqtisadi Töhfələr**: Turizmin əraziyə birbaşa gətirdiyi gəlirlər (turist xərcləri, iş yerləri) və dolayı təsirlər (məhsul və xidmət təchizatının artması, yerli iqtisadiyyatın inkişafı) qiymətləndirilməlidir.

**2. Sosial Töhfələr**: Turizmin yerli icmalar üzərindəki sosial təsirləri, mədəni mübadilə və icmanın rifahına təsiri nəzərə alınmalıdır.

**3. Ekoloji Töhfələr**: Turizmin əraziyə ekoloji təsirləri, ətraf mühitin qorunması, təbii resursların davamlı istifadəsi və turizm fəaliyyəti nəticəsində yaranan ekoloji problemlər təhlil edilməlidir.

Şəkil 2.1  Davamlı turizmin inkişaf amilləri




Bu faktorları nəzərə alaraq, turizm ərazisi ekosistemlərinin səmərəliliyini artırmaq və turizmin davamlı inkişafını təmin etmək mümkündür. Ümumiyyətlə, davamlı inkişaf anlayışı indiki nəslin tələblərinə cavab verən, eyni zamanda gələcək nəsillərin etiyaclarını təmin etməyə mane olmayan bir inkişaf modelini ifadə edir. Bu konsepsiyanın əsasında iki əsas prinsip vurğulanır: ehtiyaclar və məhdudiyyətlər. Davamlı inkişafın uğuru üçün aşağıdakı əsas amillər vacibdir:

-təhlükəsiz texnologiyaların praktikada tətbiqinin genişlənməsi;

-resursların keyfiyyət və təşkili baxımından optimallaşdırılması;

-ekoloji standartlara uyğun məhsul istehsalı və beynəlxalq əməkdaşlıq.

Dayanıqlı inkişaf dedikdə insanların yaşayışını yaxşılaşdıran, eyni zamanda təbiəti və gələcək nəsilləri qoruyan bir yanaşma nəzərdə tutulur. Bu iqtisadi artım ekoloji tarazlıq və sosial ədalət kimi üç şeyi bir-birinə uyğunlaşdırmaq deməkdir. Nümunə olaraq, fabriklərdə təmiz enerjidən istifadə etmək, tullantıları yenidən işlətmək, insanlar arasında ədalətli şəraiti yaratmaqdır. Bu fikir indiki dövrdə yaşayanların ehtiyaclarını ödəməkdən ötrü təbiəti dağıtmayaraq, gələcək ictimai cəmiyyətin həyatını pozmamaq əsasında qurulub. Yəni ki, reallıq olaraq həm pul qazanmaq lazımdır, həm də havanı, suyu, meşəni qorumaq lazımdır (Sachs, 2015).

İndiki dövrdə insanlar təbiətlə olan əlaqəni elə bir mərhələyə çatdırıb ki, hələ də dünya miqyasında ekoloji tarazlığı saxlamaq mümkündür. Lakin bunun naminə bütün ölkələr güclərini birləşdirməli, mövcud problemləri dərindən araşdıraraq davamlı inkişaf prinsiplərinə uyğun praktiki addımlar atmalıdırlar.

Sabit inkişaf yalnız iqtisadi və ekoloji tədbirlərlə məhdudlaşmır, onun tərkibində turizm sahəsi də xüsusi yer tutur. Müasir dövrdə turizmin dayanıqlılığı bir sıra çağırışlarla üzləşir, bu isə yeni strategiyalara şərt qoyur. Bu anlayışın əsasında insan fəaliyyətinin bütün formalarının ekoloji prinsiplərə uyğunlaşdırılması, qavrayış tərzinin köklü dəyişikliyi və təbiətlə harmoniyada olan yeni ictimaiyyət modelinin qurulması durur. Həyatda özünü dəyişdirmədən nə sağ qalmaq, nə də davamlı inkişaf mümkündür. İlk addım özünü yeniləmək və uyğunlaşmaq olmalıdır ki, gələcəyə daha iradəli və qətiyyətli addımlarla irəliləyə biləsən. Davamlı turizmin inkişafını təmin etmək üçün yalnız ekoloji tədbirlər yetərli deyildir. Müasir dövrdə turizmin sosial və iqtisadi tarazlığının qorunması, icmaların aktiv iştirakı və yeni texnologiyalar bu sahənin dayanıqlılığını təmin etməyə kömək edə bilər (Saarinen, 2018, s. 347).

Turizm dünya iqtisadiyyatının mühüm sektorlarından biridir və milyonlarla insana iş imkanı yaradır. Lakin turizmin davamlı inkişafı üçün onun ekoloji, iqtisadi və sosial aspektlərində balansın qorunması vacibdir. Müasir dövrdə turizm sahəsi bir sıra problemlərlə üzləşir, bunlardan biri də ətraf mühitə mənfi təsirdir. Turizmin mənfi ekoloji təsirləri turistik bölgələrdə təbii resursların həddindən artıq istifadəsi, su mənbələrinin azalması, ətraf mühitin özünü bərpa etməsinə imkan verilməməsi ekoloji problemlərin əsasını təşkil edir. İçməli su istehlakı turistik yerlərdə kəskin şəkildə artdığı üçün yerli əhalinin su mənbələrinə çıxışı çətinləşir. Mehmanxanalar, otellər və digər turizm obyektləri ifrat dərəcə də enerji sərf edərək karbon qazının yayılmasını artırır, bu isə nəticədə qlobal istiləşmənin sürətlənməsinə təkan verir. Eyni zamanda turistlərin atdığı bərk və maye tullantıların artması dənizkənarı bölgələrdə və təbiət parklarında ciddi pozuntulara səbəb olur. Turizm xidmətləri o cümlədən, avtomobil və hava daşımaları səbəbindən hava şəraitinin kirliliyi güclənir, bu da iqlim dəyişikliyi prosesini daha da tezləşdirir. Ayrı-ayrı turizm mərkəzlərində gəmi turizmi və su idmanı növləri sahil ekoloji sisteminin pozulmasına səbəb olur və dənizin canlılar aləminin yaşamaq imkanlarını məhdudlaşdırır (Weaver, 2001).

Ekoloji məsələlərlə yanaşı, turizm sənayesi iqtisadi çətinliklərlə üzləşir ki, bu da ciddi narahatlıq yaradır. Turizm gəlirlərinin bərabər şəkildə paylanmaması yerli icmaların iqtisadi imkanlarını məhdudlaşdırır. Böyük turizm korporasiyaları və

beynəlxalq şirkətlər əsas gəlirləri ələ keçirir, lakin kiçik bizneslər turizm fəaliyyətlərindən yetərincə faydalana bilmir. Yerli sənətkarlar və kiçik sahibkarlar turizm bazarında rəqabət aparmaqda çətinlik çəkir, nəticədə iri investisiya mərkəzləri kiçik iqtisadi subyektləri sıxışdırır. Kütləvi turizm bəzi bölgələrdə sosial və iqtisadi sabitliyi pozur, çünki mövsümi turist axını yerli bazarlarda qiymət artımına və məskunlaşma problemlərinə səbəb olur. Yerli əhalinin yaşayış xərcləri artır, kirayə haqları yüksəlir və onların turistik bölgələrdə rahat yaşaması çətinləşir. Üstəlik, turizm sektoruna yatırılan investisiyalar adətən qısamüddətli gəlir əldə etməyə yönəlmiş olur, bu isə uzunmüddətli dayanıqlılığı təmin etmir (Urry, 2007, s. 71-90).

Turizmin ölkə iqtisadiyyatına olan mənfi təsirləri yalnız ekoloji və iqtisadi mühitlə məhdudlaşmır. Eyni zamanda sosial mühitə də bəzən ciddi şəkildə zərərli nəicələri olur. Ümumi olaraq, turizmin genişlənməsi ilə yerli mədəniyyətlər turistlərin maraqlarına uyğun dəyişdirilir, adət-ənənələr, ticarət məqsədilə formalaşdırılır və zamanla təbii mədəni kimlik yox olmağa başlayır. Kütləvi turizm turist axını çox olan bölgələrdə yaşayış şəraitinin pisləşməsinə gətirib çıxarır, çünki ziyarətçilərin sayı hədsiz dərəcədə artıq olduqda toplu nəqliyyat, səhiyyə, xidmət infrastrukturu yerli əhalini üçün həmin xidmətlərin keyfiyyətinin və əlçatanlığının azalmasına gətirib çıxarır. Digər tərəfdən turizmin inkişafı sosial uyğunsuzluq və sinifləşmə problemini daha da kəskinləşdirə bilər. Mövsümi turizm sahəsində çalışan insanlar çox vaxt sabit olmayan iş şəraitində fəaliyyət göstərir, çünki turizm gəlirlərindən əsasən iri sahibkarlar və xarici sərmayədarlar bəhrələnirlər ki, nəticə də yerli əhali turizmdən ancaq aşağı gəlirli xidmət sahələri vasitəsilə dolanmağa məcbur olur. Bu vəziyyət icmadaxili gərginlik, narazılıq və qeyri-sabit iş mühitini ortaya çıxarır, uzunmüddətli rifahı təmin etməkdə çətinlik yaradır (Cohen, 1984, s. 373-392).

Davamlı turizmin inkişafını təmin etmək üçün kompleks və sistemli yanaşma tələb olunur. Turizm sənayesi yalnız iqtisadi və ekoloji inkişaf məqsədlərinə deyil, həmçinin sosial balansın qorunmasına yönəlməlidir. Yerli icmaların turizmdən real fayda əldə etməsi, ekosistemlərin mühafizəsi və turizmin dayanıqlı idarə olunması gələcək inkişaf üçün əsas şərtlərdən biridir. Dövlətlər, investorlar və turizm biznesləri davamlı inkişaf konseptinə uyğun yeni strategiyalar hazırlamalıdırlar. Müasir dövrdə

turizmin dayanıqlı idarə olunması təkcə iqtisadi rifahı deyil, ekoloji sabitliyi və sosial harmoniyanı da təmin etməlidir.

Nəticə etibarilə, bugünkü dünyada turizm yalnız bir sektor fəaliyyəti olmaqla kifayətlənmir, eyni zamanda qlobal sosial-iqtisadi sistemin ayrılmaz bir tərkib hissəsidir. Onun ekoloji təsirləri, iqtisadi imkanları və sosial dinamikası bir-biri ilə sıx bağlıdır və dayanıqlı inkişaf üçün balanslı bir idarəetmə tələb edir. Gələcək nəsillər üçün təbiətin qorunması, iqtisadi ədaləti təmin edilməsi və sosial rifah yaratmaq turizmin dayanıqlı idarə olunmasının əsas məqsədlərini təşkil edir. Yaşıl texnologiyalar, müasir idarəetmə modelləri və yerli icmaların fəal iştirakı turizmin ekoloji dostu və gələcəyə uyğun bir sahə kimi inkişaf etməsinə imkan tanıyır. Əgər biz bu çağırışlara adekvat cavab verə bilsək, turizm iqtisadi inkişafın hərəkətverici qüvvəsi olmaqla qalmayıb, eyni zamanda cəmiyyətin rifahını artıran, mədəni irsi yaşadan və ekosistemləri qoruyan güclü bir sistemə çevrilə bilər. Gələcəyin turizmi yalnız gəlir gətirən bir sənaye olmamalıdır - o, bəşəriyyətin rifahı, mədəni dəyərlərin qorunması və ekoloji sabitliyin təmin edilməsi üçün əhəmiyyətli bir missiya daşımalıdır. Turizmin dayanıqlı inkişafı hər birimizin məsuliyyətidir və bu sahədə yaradılan yeni strategiyalar daha ədalətli, ekoloji və sosial cəhətdən balanslı bir gələcəyin formalaşmasına kömək edəcəkdir (Niftəliyev, 2023).

## 2.2 Qarabağda dayanıqlı turizm tətbiqinin movcud vəziyyətinin təhlili

Azərbaycanın ayrılmaz parçası olan keçmiş Dağlıq Qarabağ və ətraf rayonların Ermənistan tərəfindən işğalı ölkəmizin sosial - iqtisadi inkişafına və perspektivlərinə, eləcə də maddi - mənəvi dəyərlərinə ciddi zərər vurmuşdur. Qarabağın işğalı zamanı bölgənin iqtisadiyyatı, infrastrukturu və əmək resursları böyük itkilərə məruz qalmışdır. İşğal nəticəsində zədələnmiş qurumlar, təşkilatlar və sistemlər haqqında məlumatlara nəzər saldıqda, bölgə iqtisadiyyatına vurulan ziyanın və itirilmiş dəyərlərin miqyasının olduqca böyük olduğu aydın görünür. Hələ 1994-cü ilə aid ilkin hesablamalara görə, Azərbaycan Respublikası öz iqtisadi potensialının 16 faizini itirmiş və ölkəyə 60 milyard Amerika dollarından çox ziyan dəymişdir(Məsimli, 2007, http://www.anl.az/el/q/qarabag_6/q-12.htm]. Ermənistanın həyata keçirdiyi işğalçılıq

siyasəti regionda enerji ehtiyatlarının hasilatı və ixracına dair irimiqyaslı layihələri ləngitmiş, nəticədə bütün region ölkələri sosial-iqtisadi baxımdan mənfi təsirlərə məruz qalmışdır. Lakin Azərbaycan dövləti və xalqı bu işğalla heç vaxt barışmamış, işğal olunmuş ərazilərin geri qaytarılacağına daim ümid etmişdir.

2020-ci ilin sentyabr ayında başlayan Vətən müharibəsi Azərbaycan ərazilərinin 30 illik işğalına, talanına və istismarına son qoymuşdur. Ermənistanla Azərbaycan arasında 44 gün davam edən müharibə ciddi insan itkilərinə və sosial-iqtisadi çətinliklərə səbəb olsa da, nəticədə Azərbaycan dövləti zəfər qazanmışdır. Uzun illər işğal altında qalan Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Şuşa, habelə Suqovuşan da daxil olmaqla keçmiş Dağlıq Qarabağın mühüm bir hissəsi işğaldan azad edilmişdir. Bununla da, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin vurğuladığı kimi, Qarabağ münaqişəsi artıq tarixə qovuşmuşdur (Report. Az). 2020-ci ilin noyabr ayında Rusiyanın vasitəçiliyi ilə imzalanan sazişdən dərhal sonra, erməni işğalı dövründə böyük dağıntı və talana məruz qalmış Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, bərpası və ölkə iqtisadiyyatına inteqrasiyası istiqamətində ciddi işlərə başlanmışdır.

Qarabağda dayanıqlı turizmin mövcud vəziyyətinin təhlili üçün qarışıq metodologiyadan istifadə edilmişdir. Əvvəlcə keyfiyyət yönümlü təhlil aparılmış, belə ki rəsmi sənədlər, dövlət strategiyaları statistik hesabatlardan istifadə edilərək tematik təhlil aparılmışdır. İkinci mərhələdə müəllif tərəfindən SWOT təhlili aparılaraq Qarabağda dayanıqlı turizmin güclü və zəif tərəfləri, imkanları və təhdidləri strukturlaşdırılmış şəkildə təqdim olunmuşdur. İnformasiya mənbələri olaraq aşağıdakılardan istifadə edilmişdir:

- "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi;
- "Böyük Qayıdışa dair I Dövlət Proqramı" (2022);
- "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası";
- Azərbaycan Respublikası Prezidentinin rəsmi çıxış və sərəncamları;
- Qarabağ Regional Turizm İdarəsi tərəfindən alınmış məlumatlar.

## *Qarabağda Yenidənqurma və Dayanıqlı İnfrastrukturun Formalaşması*

Vətən müharibəsi başa çatdıqdan sonra qurtarılmış ərazilərin bərpa-quruculuq işləri qarşıya qoyulan hədəf və məqsədlər çərçivəsində və nəzərdə tutulan icra mexanizmləri əsasında həyata keçirilməkdədir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə **"Azərbaycan 2030: sosial-iqtisadi inkisafa dair Milli Prioritetlər"** təsdiq edilmişdir. Qeyd olunan bu icra sənədində vacib məsələnin həyata keçirilməsi üçün iki əsas mərhələ qərarlaşdırılıb: uzunmüddətli yaşayış infrastrukturu və iqtisadi həyata yenidən qoşulma. Əgər bu hədəflər yerinə yetirilərsə, əhalinin yaşayış şəraiti öncəki vəziyyətə qaytarılmalı, həmçinin, azad olunmuş bölgələrin ölkə iqtisadiyyatına təsiri ilkin səviyyəyə çatdırılıb daha da artırılmalıdır.

Sözügedən prioritetlərin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq olunmuşdur. İşğaldan azad edilmiş ərazilərin dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiyanın təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə "**Azərbaycan Respublikasının isğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı**" təsdiq edilmişdir. Dövlət Proqramında dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya əsas məqsədlər kimi müəyyənləşdirilmişdir. Regionda ağıllı infrastrukturun qurulması, enerji, nəqliyyat və sosial obyektlərin bərpası dayanıqlı turizm üçün ilkin zəmini formalaşdırır.

Təsdiq olunmuş Böyük Qayıdış proqramının icrası üçün ilkin mərhələdə 12 milyard manatlıq vəsait bu işə ayrılıb. Hazırlıq mərhələsində 8 şəhər və 100 kənd tamamilə yenilənəcəkdir. Bu addım-addım həyata keçirilən layihənin nə qədər müddətə başa çatacağını hələlik dəqiq demək olmur. Ancaq bu çətinliklərə baxmayaraq Qarabağ və Şərqi Zəngəzurda hədsiz dərəcə də irəliləyişlər vardır. Bu gün Qarabağ və Şərqi Zəngəzurda dəstək sistemi başdan yaradılır, iqtisadiyyat canlandırılır, ermənilərin dağıtdığı təbiət bərpa olunur.

Şəkil 2.2 Mənbə: Qarabağ Regional Turizm İdarəsi



### 1. ”Ağıllı kənd” və “ağıllı şəhər” layihələrinin turizmə təsiri

Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən “ağıllı kənd” layihəsi kənd turizmi və ekoturizm baxımından pilot model rolunu oynayır. Prezident İlham Əliyev bu layihəylə bağlı 19 aprel 2021- ci il tarixində müvafiq Sərəncam imzalalayıb. Bu layihə müasir informasiya texnologiyalarını, alternativ enerjini və kənd təsərrüfatı innovasiyalarını bir araya gətirərək, turizm fəaliyyətləri üçün ekoloji cəhətdən təmiz, rəqəmsal və sosial baxımdan inklüziv bir mühit yaradır. Bu model digər kəndlərdə də tətbiq olunduqda kənd turizminin inkişafına təkan verəcəkdir (“Ağıllı şəhər (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri 19 aprel 2021-ci il).

Əslində, “Ağıllı kənd” layihəsinin tətbiqində əsas məqsəd urbanizasiyanın qarşısını almaqdır. Kənd yerlərində yaşayan insanların həyat səviyyyəsi yüksəldikcə onların şəhərə köçmək istəkləri sıfırlanır. Bu kəndlərdə ənənəvi suvarma üsulları müasir suvarma sistemləri əvəz etməlidir ki, gələcək də suvarma, əkin işlərində məhsulun bolluğuna zəmanət verir. İstər kənd təsərrüfatı, istərsə heyvandarlıqda insan əməyi minimuma endirilməlidir.

Bu gün Ağalıda artıq sabit həyat tərzi bərpa olunaraq kənddə hər şey öz yoluna düşmüşdür. Sakinlərin rahat yaşayış şəraiti üçün bütün zəruri infrastrukturlar demək olar ki, tam hazırdır. 86 ailənin məskən saldığı bu kənddə modern dövlət idarəçiliyi, ağıllı şəbəkələr və xidmətlər, paralel olaraq, innovativ biznes mühiti artıq formalaşmışdır. Enerjiyə tələbat isə tamamilə təzə enerji mənbələrindən qarşılanır. Kənddə günəş panelləri, bioenerji sistemləri və başqa özünü bərpa edən enerji

mənbələri tətbiq olunub ki, bununla da kənd öz enerjisini müstəqil şəkildə təmin edə bilir.

Ağalıdan sonra Talış qəsəbəsinə və Laçına köçlər olmuş və doğma sakinlər öz dədə-baba yurdlarına geri qayıdıblar. Ümumiyyətlə, işğaldan azad olunmuş torpaqlara hal – hazirda 9 minə yaxın məcburi köçkün köçürülüb, 2026- cı ilə qədər isə 66 min sakinin köçürülməsi nəzərdə tutulub.

### *2. Turizm üçün təhlükəsizlik zəmini: mina təmizləmə və ərazi sabitliyi*

ANAMA və digər dövlət strukturlarının məlumatlarına əsasən, 2020–2023-cü illər ərzində 77,000 hektardan artıq ərazi mina və partlayıcı maddələrdən təmizlənmişdir. Lakin ərazilərin yüksək mina çirklənməsi turizm fəaliyyətləri üçün ciddi təhlükə olaraq qalır. Təhlükəsizliyin təmin olunması və mina xəritələrinin əldə edilməsi dayanıqlı turizmin inkişafının əsas şərtlərindəndir. Çünki ərazilərimizin Ermənistan hesabına partlayıcı qurğularla həddindən çox kirlənməsi hazırda istiladan azad edilmiş torpaqların əvvəlki kimi qurulması zamanı qarşılaşdığımız böyük məsələlərdəndir. Mövcud vəziyyətdə dövlətimiz heç bir qeyri hökumətlərin və ümumdünya təşkilatlarının dəstəyi olmadan azad olunmuş ərazilərin minalardan təmizlənməsi prosesini davam etdirir ( https://anama.gov.az/).

### *3. Turizm üçün nəqliyyat və kommunikasiya infrastrukturunun əhəmiyyəti*

Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava Limanlarının tikintisi ilə regiona hava nəqliyyatı təmin olunmuşdur. 2000 km-dən artıq avtomobil yollarının və dəmir yollarının bərpası regiona giriş-çıxışı asanlaşdıraraq turizm potensialını genişləndirir. "Zəfər yolu" kimi layihələr təkcə logistik deyil, həm də simvolik və turizm baxımından mühüm əhəmiyyət kəsb edir.

Axır illər ərzində Qarabağ və Şərqi Zəngəzurda əhəmiyyətli sayda yeni yolların təməli qoyulmuş, bir neçəsinin inşası başa çatmışdır. Füzuli-Şuşa avtomobil yolu-“Zəfər yolu”nun təməli 2020-ci ilin noyabrında başlayıb və 2021-ci ildə tamamlanmışdır. Həmçinin, Tərtər–Çaylı–Suqovuşan–Talış, Füzuli–Şuşa, Füzuli–Hadrut avtomobil yollarının yenidənqurması başa çatmışdır (https://president.az/az/articles/view/54040).

Azad olunmuş torpaqlarımızın infrastrukturu ancaq yol-nəqliyyatla bitmir, layihələrin bir qismini dəmir yolu xətlərinin bərpası təşkil edir. Horadiz - Ağbənd regionunda keçirilən ən iri dəmiryol layihəsidir. Dəmiryolun təməli 2021-ci il fevral ayının 14-də qoyulmuşdur. Bu yol həm strateji, həm də iqtisadi cəhətdən çox verimli, gediş-gəlişi asanlaşdıracaq alternativlərdən olacaqdır (https://www.azerbaijan-news.az/az/posts/detail/qarabag-ve-serqi-zengezurda-demir-yollari-da-suretle-berpa-edilir-1694584138).

Qarabağda strateji əhəmiyyətli 3 hava limanının tikilməsi ən böyük infrastruktur hadisələrindən sayılır. 2021-ci ilin oktyabrında açılışı olmuş Füzuli Beynəlxalq Hava Limanının enmə-qalxma zolağı 3 min metr uzunluğunda, eni isə 60 metrdir. Aeroportun terminalı saatda 200 sərnişinin buraxılmasına şərait yaradır. İkinci beynəlxalq dərəcəli Zəngilan Hava Limanı həmçinin, uzunluğu 3min, eni 60 metr olan uçuş-enmə zolağına malikdir. Növbəti aeroport olan Laçın Beynelxalq Hava Limanı ən böyük obyektlərdəndir. Laçın uçuş mərkəzi dəniz səviyyəsindən ən hündürdə yerləşməsiylə logistik mərkəzlərin yaranmasına fayda verəcək (https://azerbaijan-news.az/az/posts/detail/qarabag-ve-serqi-zengezurun-hava-qapilari-1668459541).

### *5. Turizm infrastrukturu: otellər, ASAN/DOST xidmətləri və yeni obyektlər*

Şuşa şəhəri ASAN və DOST xidmətləri, tibb məntəqələri, poçt və ictimai xidmət obyektləri turistlərin rahatlığı üçün infrastruktur təminatının bir hissəsidir. Bu obyektlər həm də turizm axınının idarə olunması və xidmət keyfiyyətinin yüksəldilməsi üçün əsas rol oynayır.

Ağalıda 360 nəfərlik məktəb və 60 nəfərlik uşaq bağçası da tikilib istifadəyə verilib. Həmçinin, burada poçt şöbəsi, ”ASAN xidmət”, DOST mərkəzi və Kiçik-Orta Biznesə Dəstək Mərkəzləri də yaradılmışdır. Kənddə geyim fabriki, sağlamlıq ocağı, aptek, mağaza, kafe və mobil operatorun xidmət bölməsi də fəaliyyət göstərir. Bundan əlavə, Xankəndində 2024-cü ildə köhnə Pedaqoji İnstitutun yerində “Qarabağ” Universiteti fəaliyyətə başlamışdır.

Təbii ki, regionda aparilan quruculuq işləri bununla bitmir, şəhərlərdə inzibati binalar və otellər də inşa edilir. Bunlardan, Şuşada 4 otel – Xarı Bülbül, Qarabağ, Şuşa, Yasəmən otelləri; Zəngilanda 1 otel – Ağalı otel; Ağdamda 2 otel – Ağdam city, Kamp

otel; Xankəndidə 11 otel – Palace, Qarabağ, Xan, İnn city, Segah, Yurd, Qala, Ulus, West, Sədəf otelləri; Füzulidə isə - Qarabağ, Zəfər, Evim və Sənan otelləri tikilib və hal-hazirda da istifadəyə verilib. Sevindirici haldır ki, yuvalarına qayıdan gənclər, qadınlar-qızlar artıq otellərdə işlə təmin olunurlar. Hətta, Ağdam city otelinin müdiriyyəti qadın işçilərinin rahatlığını bərpa etməkdən ötrü xüsusi servis xidməti təşkil edərək onları evlərindən otelə və geri çatdırılmanı təmin edir (Qarabağ Regional Turizm İdarəsi).

### *6. Qarabağda turizmin inkişafında yaşıl enerji və ekoloji baxış*

Laçın və Suqovuşan bölgələrində fəaliyyət göstərən su elektrik stansiyaları və "yaşıl enerji zonası" konsepsiyası dayanıqlı turizmin enerji təhlükəsizliyi və ekoloji standartlara uyğunluğu baxımından önəmlidir. Elektrik enerjisi ilə tam təmin olunmuş və rəqəmsallaşdırılmış bölgələr turistlər üçün cəlbedici və müasir şərait yaradır.

Dövlət proqramının əsas vəzifələrindən biri Qarabağ da elektrik techizatı şəbəkəsinin qurulması, işğaldan azad olmuş ərazilərin məntəqələrində elektrik təchizatı şəbəkəsinin tikintisi, təmiz enerji prinsipi ətrafında elektron və  şirin su elektronika stansiyaların qurulmasıdır. Qarabağda "Yaşıl Enerji Zonası"nın yaradılmasında məqsəd bərpa olunan enerji mənbələrinin yardılması, ölkədə karbon qazı emissiyalarının azaldılması tədbirlərinin görülməsidir. İlkin olaraq, "Qarabağ Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin", sonra "Ağdam –1","Ağdam -2" yarımstansiyaların açılışı olmuşdur. Növbəti mərhələdə də 9 yarımstansiya istifadəyə verilib. Bunlara Laçındakı "Güləbird", Tərtərdə "Suqovuşan-1", "Suqovuşan-2", Kəlbəcərdə yerləşən "Kəlbəcər -1" sesləri aiddir. 2022- ci ildə Həkəri çayı üzərində "Güləbird" su eletrik stansiyası tikilib,işlək vəziyyətə gətirilmişdir (Əliyev, 2024).

Azad edilmiş ərazilər də artıq 12 elektrik enerjisi yarımstansiyası tikilib. Bu stansiyalar ümumi enerji sisteminə qoşulub və tam rəqəmsallaşdırılıblar. Tam olaraq 700 kilometrə yaxın yüksəkgərginlikli enerji ötürmə xətti çəkilib.

### *7. Yeni iqtisadi zonalar və aqroparkların turizmə inteqrasiyası*

Azad olunmuş ərazilərin iqtisadi gücünün aktivləşdirməsi və qayıdan sakinlərin peşə fəaliyyətinin yerinə yetirilməsi Maliyyə strukturlarının dövlət və İqtisadiyyat Nazirliyinin maliyyə dəstəyiylə böyük sənaye təklifləri ilə reallaşır. Bütün bu müddət ərzində bu məqsədlə Cəbrayıl Sənaye Parkı, Laçın İqtisadi Mərkəzi, Ağdam İstehsalat Mərkəzi və Zəngilan rayonunda “Dost Aqropark”ı təsis edilib.

"Araz Vadisi İqtisadi Zonası", Ağdam və Laçın sənaye və aqroparkları iqtisadi fəaliyyətin canlandırılması ilə yanaşı, aqroturizm və sənaye turizminin inkişafı üçün də potensial yaradır. Kənd təsərrüfatı emalı, tekstil və sənətkarlıq obyektləri turistlər üçün həm məhsul təqdimatı, həm də interaktiv təcrübə məkanı ola bilər (https://economiczones.gov.az/qarabagda-yaradilan-senaye-zonalari).

Qeyd olunan məlumatlar əsasında müəllif tərəfindən Qarabağda dayanıqlı turizmin mövcud vəziyyətinin SWOT təhlili (cədvəl 2.1) aparılmış, regionun turizm baxımından güclü və zəif tərəfləri, mövcud imkanlar və təhlükələr qeyd olunmuşdur.

Cədvəl 2.1 SWOT Təhlili: Qarabağda Dayanıqlı Turizmin İnkişafı

| **Güclü Tərəflər** | **Zəif Tərəflər** |
|---|---|
| Zəngin təbii və mədəni irs | Mina təhlükəsi və təhlükəsizlik məsələləri |
| Dövlət dəstəyi və beynəlxalq diqqət | Hələ formalaşmamış turizm bazarı və infrastruktur çatışmazlığı |
| Ağıllı kənd və şəhər layihələri | İnsan resurslarının (turizm menecerləri, bələdçilər) məhdudluğu |
| Yaşıl enerji və rəqəmsal infrastruktur | Marketinq və tanıtım strategiyalarının olmaması |
| İmkanlar | Təhdidlər |
| Regional və beynəlxalq turizm marşrutlarına inteqrasiya | Geosiyasi risklər və Ermənistan tərəfindən davam edən təxribatlar |
| Aqro-, eko- və mədəni turizmin inkişafı | Ekoloji balansın pozulması və plansız turizm inkişafı |
| İctimai və özəl sektor əməkdaşlığı | Maliyyə dayanıqlılığı və donor asılılığı |
| Yeni iş yerlərinin yaradılması və gənclərin bölgəyə qayıdışı | Uzunmüddətli reabilitasiya ehtiyacları |

# III FƏSİL. QARABAĞ REGİONUNDA DAYANIQLI TURİZM İNKİŞAFI

## 3.1. Dayanıqlı turizm inkişafında beynəlxalq təcrübə

Turizm sənayesi bir çox dünya ölkələrinin ümummilli gəlirinin artmasına töhfə verən,ən sürətlə inkişaf edən və dünya iqtisadiyyatının inkişafında böyük əhəmiyyət kəsb edən sənaye sahələrindən biridir. Gördüyümüz kimi, Qarabağ iqtisadi rayonlarının inkişafının turizmlə əlaqəsi sıx bağlıdır. Həm təbiətinin əlverişli olması həm də yenidən qurma və bərpa işlərinin müasir dövrün tələblərini nəzərə almaqla aparılması həmin ərazidə turizmin inkişafını daha da sürətləndirəcəkdir. Qələbədən dərhal sonra azad edilmiş şəhər və kəndlərin baş planını və layihələr hazırlanıb, bərpa işlərinə başlanılmışdır. “Ağıllı şəhər, ağıllı kənd” tikilməsi, meşələrin salınmas və həmçinin Qarabağ bölgəsini təmiz ekoloji region kimi dünyaya tanıtmaq hədəflənib. Planlaşdırılan bütün bu işlər Qarabağ zonasında turizmin inkişafına yol açır. Həmçinin müasir dövrün tələblərinin nəzərə alınması, bölgənin ekoloji şəraiti ilə turizmə multipikasiya effektinin necə təsir etdiyini anlamağı asanlaşdırır.Bütün bu sadaladıqlarımızı daha yaxşı təqdiq eləməkdən ötrü dünyanın müxtəlif ölkələrində dayanıqlı turizm sahəsində uğurlu təcrübələri Qarabağda yol xəritəsi kimi istifadə edə bilərik. Bu modellər yerli şəraitə uyğunlaşdırılaraq regionun potensialını artıra bilər.

**1. Ekoturizm: Kosta Rika Modeli** – Kosta Rika qlobal ekoturizm sahəsində dünya liderlərindən biri hesab olunur. Ölkənin 25%-dən çox ərazisi milli parklar və qorunan təbiət zonaları kimi təsnif edilir və bu sahələrdə bərpa olunan enerji sistemləri, biomüxtəlifliyin mühafizəsi və yerli icmaların turizmə cəlb olunması həyata keçirilir. (Honey, 2008). Qarabağda Suqovuşan su anbarı və Laçın rayonunun sıx meşə örtüyü kimi təbii zonalar ekoturizm üçün əlverişli ərazilərdir. Burada ekoloji cəhətdən təmiz qonaq evləri, velosiped yolları və bioloji turizm marşrutları yaradıla bilər. Qarabağda dövlət dəstəyi və beynəlxalq təşkilatların maliyyə yardımı ilə bu layihələr daha sürətli həyata keçirə bilər.

**2. Mədəni irsin bərpası: İordaniya Təcrübəsi** – İordaniyanın Petra şəhəri YUNESKO-nun Dünya İrs Siyahısında yer alır və şəhərin bərpası və turizm mərkəzinə çevrilməsi buna nümunədir (UNESCO, 2021). Qarabağda Şuşanın tarixi məscidləri,

karvansaraları, Ağdamın abidələri və Füzulinin qədim memarlıq nümunələri oxşar strategiya əsasında bərpa edilə bilər. YUNESKO ilə əməkdaşlıq və Avropa ölkələrinin bərpa təcrübəsindən faydalanmaq bu prosesi sürətləndirə bilər. Bundan əlavə, Şuşada beynəlxalq musiqi festivalları, sənət sərgiləri və mədəni tədbirlərin təşkili regionun turistik cəlbediciliyini artırmağa xidmət edəcəkdir (Nağıyev, 2020).

**3. Yerli icmaların iqtisadi gücləndirilməsi: Tanzaniya yanaşması** – Tanzaniyada Maasai icmaları turistlərə öz mədəni irslərini təqdim edərək iqtisadi gəlir əldə edirlər (Salazar, 2012). Qarabağda bələdçilik xidmətləri, etnoqrafik əl işləri və milli mətbəxə aid təlimlər keçməklə yerli əhalinin turizmə cəlb olunması sosial, iqtisadi təsirin artmağına səbəb olacaqdır. Şuşada yerli xalçaçılıq sənətinin nümayişi, Zəngilanda yerli bal və üzümçülük məhsullarının satışını stimullaşdıran tədbirlər turistlər üçün maraqlı fəaliyyət sahələri kimi formalaşa bilər. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı kimi təlim proqramları bu prosesə dəstək verə bilər.

**4. Rəqəmsal İnnovasiyalar: Estoniya örnəyi** – Estoniya virtual turlar, süni intellektlə gücləndirilmiş turizm sistemləri və onlayn bronlaşdırma texnologiyaları vasitəsilə turizmdə inqilabi dəyişikliklər etmişdir (Visit Estonia, 2023). Qarabağda turizm obyektlərinin tanıdılması üçün mobil tətbiqlər, virtual reallıq texnologiyaları, turistlər üçün interaktiv məlumat platformaları yaradılaraq regionun beynəlxalq turistlərə daha əlçatan olmasına imkan yaradıla bilər. Şuşa qalası və Xudafərin körpülərini virtual olaraq gəzmək imkanı beynəlxalq turistlərin marağını artıra bilər. Sosial media marketinq strategiyaları və beynəlxalq turizm platformaları (TripAdvisor, Booking.com) ilə əməkdaşlıq bu prosesi dəstəkləyə bilər.

**5. Ağıllı turizm və texnoloji inteqrasiya: Yaponiya təcrübəsi** – Yaponiya ağıllı turizm sahəsində qabaqcıl ölkələrdən biridir. Burada intellektual turizm sistemləri, virtual reallıq turları və avtomatlaşdırılmış bələdçi xidmətləri tətbiq olunur. Zaman keçdikcə Qarabağda turistlər üçün smart turizm tətbiqləri, süni intellekt əsaslı bələdçi robotlar və interaktiv xəritələr vasitəsilə turizm təcrübəsi daha innovativ və effektiv hala gələ bilər (Yoshimoto, 2022).

Qarabağda turizmin inkişafı dayanıqlı strategiyalar və müasir yanaşmaların tətbiqi ilə mümkün olacaqdır. Regionda turizmin sosial, ekoloji və iqtisadi aspektlərə

uyğun şəkildə formalaşdırılması uzunmüddətli inkişafı təmin edə bilər. Dayanıqlı turizm modeli, yalnız iqtisadi qazanc və infrastruktur quruculuğu deyil, həm də ətraf mühitin qorunması, yerli icmaların sosial gücləndirilməsi və mədəni irsin yaşadılması kimi fundamental prinsiplərə əsaslanmalıdır.

Regionun turizm sektoru innovativ yanaşmaların tətbiqi ilə qlobal səviyyədə tanınan bir modelə çevrilə bilər. Əgər dayanıqlı turizm yalnız klassik ekoturizm və mədəni turizm yanaşmaları ilə məhdudlaşırsa, bu, gələcək inkişaf üçün kifayət etməyəcəkdir. Turizmin yeni dövrü sosial və texnoloji yeniliklərin inteqrasiyası ilə formalaşdırılır – rəqəmsal turizm texnologiyalarının inkişafı, ağıllı turizm sistemlərinin qurulması və turizm sahəsində innovativ layihələrin təşviqi Qarabağın beynəlxalq turizm bazarında özünəməxsus yer tutmasına imkan verəcəkdir.

Bundan əlavə, yerli icmaların turizmə inteqrasiyası, təbii ehtiyatların qorunması və ekoloji cəhətdən təmiz infrastrukturun yaradılması regionda uzunmüddətli dayanıqlı inkişafı təşviq edəcəkdir. Qarabağ artıq bərpa olunan torpaqların simvolu deyil – o, yenilənmiş turizm konseptləri, mədəni irsin qorunması və ekoloji turizm yanaşmalarını bir araya gətirərək, dayanıqlı inkişafın yeni mərkəzinə çevrilməyə hazırdır.

## 3.2. Qarabağda dayanıqlı turizmin inkişaf perspektivləri

30 il ərzində Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızda saysız-hesabsız tarixi, mədəni, dini abidələrimiz nəinki viran edilmiş, hətta Azərbaycan mədəni irsinin tamamilə məhv edilməsində məqsədyönlü siyasət həyata keçirilmişdir. Beynəlxalq hüquq prinsiplərinin pozulması nəticəsində Qarabağın mədəni, tarixi və dini irsinə ciddi zərər vurulmuş, abidələr dəyişdirilərək təhrif edilmişdir. Ermənistan tərəfindən həyata keçirilmiş bu vandallıq aktları insan haqqlarının kobud pozuntusu olmaqla yanaşı, qlobal mədəni irsin məhv edilməsi ilə nəticələnmişdir. Lakin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin strateji yanaşması və uğurlu siyasəti sayəsində işğal altında olan torpaqlar azad edilmiş və dövlət tərəfindən genişmiqyaslı bərpa və quruculuq işləri prioritet istiqamətə çevrilmişdir. Eyni zamanda, bu ərazilərimizdə tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən

canlandırmaq üçün müxtəlif sektorlara mərhələli şəkildə sərmayə qoyuluşu mühüm vəzifələrdən biri olmuşdur.

Həqiqətən də, Qarabağ bölgəsindəki işğal və münaqişə tarixi mədəniyyət abidələrinin, muzeylərin və digər mühüm obyektlərin dağıdılması və zədələnməsi ilə nəticələnmişdir. Bölgənin tarixi abidələri, qədim memarlıq nümunələri, muzeylər və arxeoloji obyektlər ciddi zərər görmüş, mədəni irsə bərpa olunması mümkün olmayan itkilər vurulmuşdur. Bu itkilərin qarşısını almaq və mədəni irsi qorumaq məqsədilə kompleks bərpa və mühafizə tədbirlərinin həyata keçirilməsi zəruridir. Tarixi abidələrin bərpası, infrastrukturun yenilənməsi və yeni layihələrin həyata keçirilməsi yerli iqtisadiyyata müsbət təsir göstərərək turizmin inkişafına və yeni məşğulluq imkanlarının yaranmasına stimul verəcəkdir.

**1. Mədəni irsin bərpası üçün tədbirlər:**

— *Bərpa üçün beynəlxalq dəstək*: Beynəlxalq ictimaiyyət, o cümlədən, YUNESKO kimi təşkilatlar çox vaxt mədəni irs obyektlərinin bərpası və qorunmasına dəstək verir. Beynəlxalq tərəfdaşlarla əməkdaşlıq zərərin qiymətləndirilməsində, bərpa planlarının işlənib hazırlanmasında və zədələnmiş ərazilərin yenidən qurulması üçün maliyyənin təmin edilməsində dəstək göstərə bilər.

— *Artefaktların sənədləşdirilməsi və mühafizəsi:* Zədələnmiş ərazilərdən xilas edilmiş və ya bərpa edilmiş artefaktları və tarixi əşyaları sənədləşdirmək və qorumaq çox vacibdir.Bu təşəbbüs Qarabağ bölgəsinin mədəni irsinin mühafizəsinə töhfə verməklə yanaşı,gələcək elmi araşdırmalar və təhsil məqsədləri üçün dəyərli mənbələrin qorunmasını təmin edəcəkdir.

— *Potensialın artırılması və təlim:* Tarixi və mədəni irs obyektlərinin bərpası və yenidən qurulması prosesinin uğurla həyata keçirilməsi üçün yüksək ixtisaslı mütəxəssislərin iştirakı zəruridir. yenidən qurulması və bərpası üçün bacarıqlı mütəxəssislər tələb edilir.Konservasiya, bərpa və muzey idarəçiliyi sahəsində yerli təşkilatlara və mütəxəssislərə təlim və bacarıqların artırılması proqramlarının təmin edilməsi regionun mədəni irsinin qorunmasına və saxlanmasına kömək edə bilər.

**2. Qarabağda turizmin inkişafı: infrastruktur problemləri və həll yolları:** Qarabağ bölgəsində turizmin genişlənməsinə maneə yaradan əsas faktorlardan biri infrastrukturun yetərsizliyidir. Burada nəzərə alınmalı olan bəzi məqamlar var:

**a) İnfrastruktur çətinlikləri:**

— *Nəqliyyat:* Səmərəli nəqliyyat infrastrukturu turizmin inkişafı üçün vacibdir.Bu sahəyə yaxşı vəziyyətdə saxlanılan yollar,geniş magistral şəbəkəsi və turistik məkanlara maneəsiz çıxışı təmin edən infrastrukturlar daxildir.Eyni zamanda,regionun müxtılif hissələrini birləşdirən körpülərin inşası həm nəqliyyat əlaqələrini gücləndiri,həm də turizm sektorunun dinamik inkişafına ərmağan verir.

— *Yerləşdirmə imkanlarının təkmilləşdirilməsi*: Gələn turistlərin diqqətini çəkmək üçün lazımınca və standartlara uyğun alternativlər zəruridir.Müxtəlif büdcələrə uyğun mehmanxanalar,qonaq evləri və digər yaşayış obyektlərinin yaradılaraq turistlərin rahatlığını təmin etməkçün regionda artırılmalıdır.

— *Bağlantının gücləndirilməsi:* Səyahət edən turistlər üçün sabit və etibarlı internet bağlantısı,eləcə də keyfiyyətli telekommunikasiya xidmətlərinə çıxış böyük əhəmiyyət kəsb edir. Bura mobil şəbəkənin əhatə dairəsi, Wi-Fi mövcudluğu və digər rabitə xidmətlərinin təmin ediməsi daxildir.

— *Turist obyektlərinin inkişafı və idarə edilməsi:* Turizm sektorunun effektiv fəaliyyəti üçün ziyarətçi mərkəzləri, dayancaq yerləri və istirahət məkanlarının müasir tələblərə uyğun şəkildə qurulması və idarə olunması vacibdir.

— *Kommunal xidmətlərin təmin edilməsi:* Elektrik enerjisi, su təchizatı və tullantıların idarə olunması kimi əsas kommunal xidmətlərin etibarlı və fasiləsiz fəaliyyəti mühum əhəmiyyət kəsb edir.

**b) İnfrastrukturun inkişafı üçün strategiyalar -** Bölgədə infrastrukturun yetərsizliyini aradan qaldırmaq üçün hökumət, özəl sektor və beynəlxalq tərəfdaşlar arasında sıx əməkdaşlıq zəruridir.

— *İnfrastrukturun inkişafına investisiya:* Nəqliyyat şəbəkələrinin, yaşayış obyektlərinin və digər zəruri infrastrukturun tikintisi və təkmilləşdirilməsi üçün vəsaitlərin ayrılması.

— *Özəl sektorla strateji tərəfdaşlıq:* Turizmin infrastrukturunun inkişaf etdirilməsi üçün ozəl sektorun fəal iştirakı və strateji investisiyaların cəlb edilməsi tələb olunan əhəmiyyət kəsb edir.

— *Beynəlxalq dəstək:* İnfrastruktur layihələrini və potensialın gücləndirilməsi təşəbbüslərini dəstəkləmək üçün beynəlxalq təşkilatlardan, inkişaf agentliklərindən dəstək. İnfrastruktur boşluqlarını aradan qaldırmaqla Qarabağ regionu öz turizm potensialını artıra, daha çox ziyarətçi cəlb edə, iqtisadi imkanlar yarada və regionun ümumi inkişafına töhfə verə bilər (Mirzəyev, 2024).

**3. Qarabağda turizmin inkişafı:marketinq və reklam strategiyaları-** Marketinq və reklamın zəif olması Qarabağ bölgəsində turizmin inkişafına mane olan əsas faktorlardandır. Effektiv marketinq və reklam strategiyaları regionun cazibədar yerlərini tanıtmaq və potensial turistləri cəlb etmək üçün çox vacibdir.

— *Təyinat brendinqi:* Güclü və cəlbedici təyinat brendinin inkişafı turistləri cəlb etmək üçün vacibdir. Bu, Qarabağ bölgəsinin mədəni irsi, təbii gözəlliyi və tarixi əhəmiyyəti kimi unikal satış nöqtələrinin müəyyən edilməsini və işıqlandırılmasını nəzərdə tutur.

— *Rəqəmsal marketinqin gücləndirilməsi və onların onlayn mövcudluğunun artırılması:* Müasir rəqəmsal dövrdə onlayn varlığa sahib olmaq turizm istiqamətinin tanıdılması və bazar rəqabətliliyinin yüksəldilməsi baxımından önəmli rol daşıyır. Bölgə öz turistik yerlərini nümayiş etdirmək, məlumat vermək və potensial ziyarətçilərlə əlaqə saxlamaq üçün məlumatlandırıcı vebsayta, sosial media kanallarına və onlayn səyahət platformalarına sərmayə qoymalıdır. Axtarış motorunun optimallaşdırılması (SEO), məzmun marketinqi və sosial media reklamı kimi rəqəmsal marketinq strategiyalarından istifadə görmə qabiliyyətini və əhatə dairəsini əhəmiyyətli dərəcədə artıra bilər.

— *Məqsədli reklam kampaniyaları:* İstədiyiniz auditoriyaya çatan hədəflənmiş reklam kampaniyalarının dizaynı çox vacibdir. Buraya onlayn reklam, çap mediası, televiziya, radio və açıq hava reklamı daxil ola bilər. Turizm agentlikləri, turoperatorlar və səyahət agentləri ilə effektiv əməkdaşlıq marketinq fəaliyyətinin gücləndirilməsi və geniş auditoriyaya çatmağa imkan yaradır.

— *Tərəfdaşlıq və əməkdaşlıq:* Hava yolları, otellər və yerli bizneslər kimi turizm sənayesindəki digər maraqlı tərəflərlə əməkdaşlıq marketinq səylərini artıra bilər.

— *Tanılıq turları və mətbuat səfərlərinin təşkili:* Turizm məkanlarının tanıdılması və geniş ictimaiyyətə çatdırılması üçün jurnalistlər, səyahət bloggerləri və influenserlər üçün tanışlıq turları və mətbuat səfərlərinin təşkili mühim rol oynayır. Bu fəaliyyətlər onlara regionu birbaşa təcrübədən keçirməyə və öz təcrübələrini daha geniş auditoriya ilə bölüşməyə imkan verir, ağızdan-ağıza marketinqinə töhfə verir.

— *Turizm mütəxəssislərinin bacarıqlarının təkmilləşməsi:* Yerli turizm mütəxəssislərinin peşəkar səviyyəsini yüksəltmək üçün təlim və bacarıqların inkişafı proqramlarının həyata keçirilməsi vacibdir. Buraya rəqəmsal marketinq, sosial medianın idarə edilməsi, məzmunun yaradılması və müştəri münasibətlərinin idarə edilməsi üzrə seminarlar daxildir. Effektiv marketinq strategiyalarına investisiya qoyulması və güclü brend imicinin yaradılması regionun turizm potensialının artırılmasında vacib rol oynayır. Düzgün marketinq yanaşması turistlərin marağını cəlb edərək ziyarətçi sayını artırmağa və bölgənin beynəlxalq səviyyədə tanınmasına imkan yaradır (Heritage Azerbaijan, 2020).

**4. Qarabağda turizmin inkişafı: təbliğat strategiyalarının gücləndirilməsi-** Turizmin inkişafı sahəsində çatışmazlıqların aradan qaldırılması hökümət öhdəliyi, maraqlı tərəflərin cəlb edilməsi, investisiya, potensialın yaradılması, marketinq və davamlı monitorinqi əhatə edən çoxşaxəli yanaşma tələb edir.

— *Mövsümöncəsi marketinq:* Turizm mövsümündən əvvəl regionları tanıtmağa başlamaq çox vacibdir. Bu, potensial ziyarətçilərə səfərlərini planlaşdırmağa və lazımi tədbirləri vaxtından əvvəl etməyə imkan verir. İl ərzində həm onlayn, həm də oflayn marketinq kampaniyalarının həyata keçirilməsi məlumatlılığın artırılmasına və turizm məkanları kimi regiona marağın artmasına kömək edə bilər

— *Effektiv kommunikasiya kanalları:* Hədəf auditoriyasına effektiv şəkildə çatmaq üçün müxtəlif kommunikasiya kanallarından istifadə etmək olar.

— *Tur operatorları və səyahət agentləri ilə əməkdaşlıq:* Regionlarda ixtisaslaşan və ya bu sahədə maraqlı olan əhəmiyyətli müştəri bazası olan turoperatorlar və səyahət

agentləri ilə əməkdaşlıq əlaqələri qurmaqla onları yenilənmiş məlumatlarla, tanıtım materialları ilə təmin etmək lazımdır.

— *İnvestisiyaların kifayət qədər mövcud olmaması:* Bunun üçün xüsusilə turizm sektorunu hədəf alan hərtərəfli investisiya təşviqi strategiyası hazırlana bilər. İnvestisiyaya cəlb etmək üçün dövlət və özəl sektorlar arasında əməkdaşlığı gücləndirmək, investisiya imkanlarını araşdırmaq və qarşılıqlı faydalı tərəfdaşlıq yaratmaq üçün otel tərtibatçıları, tur operatorları və infrastruktur şirkətləri kimi özəl sektorun maraqlı tərəfləri ilə əlaqələr qurmaq lazımdır. Turizmlə əlaqəli layihələrə maliyyə dəstəyi vermək üçün xüsusi investisiya fondları yaratmaqla, yerli və xarici investorları bu fondlara müraciət etməyə həvəsləndirmək olar. Əlverişli biznes mühiti yaradan aydın və şəffaf investisiya tənzimləmələrini, mülkiyyət hüquqlarının qorunmasını və investorlara uyğun siyasətləri təmin etmək, bürokratik prosedurları sadələşdirmək və turizm sektoruna investisiya qoyuluşu üçün lazımsız maneələri aradan qaldırmaq lazımdır. Bu strategiyaları həyata keçirməklə Qarabağda turizm sektoruna investisiyaları cəlb etmək, onun inkişafına təkan vermək mümkün olar.

— *Xaricdə fəaliyyət göstərən tur operatorlarının satış kataloqunda Azərbaycandakı turizm imkanlarına lazımınca yer verilməməsi:* Bu da regionda turizmin inkişaf dinamikasına mənfi təsir göstərən amillərdən sayılır. Bu amilin aradan qaldırılması üçün Azərbaycana səfər etməkdə maraqlı olan xaricdə potensial hədəf bazarlarını müəyyən etmək üçün hərtərəfli bazar araşdırması aparmaq, onların seçimlərini təhlil etmək lazımdır. Bu məlumat marketinq strategiyalarını uyğunlaşdırmağa və turizm imkanlarını düzgün auditoriyaya effektiv şəkildə tanıtmağa kömək edəcək. Azərbaycanın öz satış kataloqlarına daxil edilməsini təmin etmək üçün xaricdə fəaliyyət göstərən turoperatorlarla fəal şəkildə məşğul olmaq və əməkdaşlıq etmək, turoperatorlar üçün təyinat yeri ilə tanış olmaq və onları turizm təklifləri ilə tanış etmək üçün tanışlıq səfərləri təşkil etmək olar. Bundan əlavə, beynəlxalq yarmarka və sərgilərdə iştirak etməklə Azərbaycanın turizm təkliflərini nümayiş etdirmək, turoperatorlarla əlaqələr qurmaq, Azərbaycanı onların satış kataloqlarına daxil etmək üçün tərəfdaşlıq danışıqları aparmaq mümkün olar.

— *İxtisaslı kadr çatışmazlığı:* Bu çatışmazlığın aradan qaldırılması üçün turizm sənayesinin ehtiyaclarına cavab verən təlim proqramları qurmaq, təhsil müəssisələri ilə əməkdaşlıq etmək olar. Tələbələri və ya məzunları turizm sahəsində karyera qurmağa həvəsləndirərək, onlara praktiki təlim təcrübələri təqdim etmək olar. Yaranan tendensiyalar, yeni texnologiyalar, müştəri xidməti və liderlik bacarıqları üzrə seminarlar, təlimlər təşkil edilə bilər. İşçiləri öz bacarıq və biliklərini təkmilləşdirmək üçün tədbirlərdə və konfranslarında, beynəlxalq təcrübələrdə iştirak etməyə təşviq etmək olar.

Yuxarıda qeyd olunan təklif və tövsiyələr Qarabağ iqtisadi rayonunda turizm bazarının formalaşmasında, inkişafında və canlanmasında mühüm əhəmiyyət kəsb edə bilər. Bütün bunları həll etməklə region öz unikal təbii gözəlliklərini və mədəni irsini dünyanın hər yerindən gələn qonaqlara nümayiş etdirə bilər. Dağlarda gəzintidən tutmuş qədim xarabalıqları kəşf etməyə qədər Qarabağda hər kəs üçün bir şey var. Düzgün aparılan strateji inkişafla, bölgə orijinal və unudulmaz təcrübə axtaran səyahətçilər üçün mütləq ziyarət edilməli bir məkana çevrilə bilər.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması ilə əlaqədar həyata keçirilmiş layihələr göstərir ki, Azərbaycan bu əraziləri regionda ən inkişaf etmiş ərazilərdən birinə çevirməyi qarşıya prioritet vəzifə kimi qoymuşdur. İşğaldan azad olunmuş rayonlarda mövcud olan böyük təbii resurslar və ehtiyatlar bu prioritet vəzifənin yerinə yetirilməsinə imkan yaradır. Nəqliyyat sahəsi ilə bağlı həyata keçirilmiş layihələrin əhatəli və genişmiqyaslı olması və eyni zamanda nəqliyyat sahəsi üzrə Qarabağa müxtəlif istiqamətlərdən hərəkət etmək imkanının mövcud olması gələcəkdə bu regionun qonşu ölkələrlə iqtisadi əlaqələrin sürətlə inkişaf etməsində başlıca və mühüm tranzit əraziyə çevrilməsinə böyük şərait yaradacaqdır. Bunun nəticəsində isə regional ölkələr arasında mövcud ticarət əlaqələri daha da genişlənəcəkdir. Məhz buna görə də işğaldan azad edilmiş ərazilərdə zəruri hesab edilən infrastrukturun təmin edilməsi təkcə Azərbaycan üçün deyil, həmçinin qonşu ölkələr üçün də olduqca əhəmiyyətlidir.

Nəqliyyat sahəsində planlaşdırılan layihələrin həyata keçirilməsi, eləcə də hava limanlarının inşası eyni zamanda Qarabağda mövcud olan turizm potensialının reallaşdırılmasına zəmin yaradacaqdır. Bütün bunlar isə son nəticədə Azərbaycanda turizm sektorunun inkişafına nəzərəçarpacaq dərəcədə töhfə verəcəkdir. Qarabağ regionunun bərpa edilməsi və burada mövcud olan iqtisadi imkanların yenidən canlandırılması nəticəsində həmin ərazilərin ölkə iqtisadiyyatındakı payı getdikcə güclənəcəkdir.

Bu, Azərbaycanın iqtisadiyyatının inkişafı üçün şərait yaradaraq, eyni zamanda neftdən kənar sahələrin də böyüməsinə güclü dəstək verəcəkdir. Bundan əlavə, Qarabağın sürətli böyüməsi regionun ümumi həyat səviyyəsinə kömək edərək Ermənistanın işğalı dövründə dayanmış və istifadə olunmamış layihələrin həyata keçirilməsi üçün imkan yaradacaqdır. Regionda barışın təmin edilməsi və gərginliklərin təkrarlanmasının qarşısının alınması Qarabağda davamlı turizmin iqtisadi inkişafına imkan yaradacaqdır.

Mövzunun aktuallığı ilə əlaqədar aşağıdakı təkliflər irəli sürülür:

- Qarabağ iqtisadi rayonunun infrastrukturu yenidən qurulmalı və ölkənin turizm potensialını maksimum dərəcədə artırmaq üçün lazımi addımlar atılmalıdır;

- Turizm sahəsini tanıtmaq üçün sosial media kampaniyaları, vloqlar və tanıtım videoları hazırlanmalı, Qarabağın gözəllikləri və mədəniyyətini təqdim edən təsvirlər paylaşılmalı;

-Ekoturizm marşrutları hazırlamaq, trekkinq, dağ yürüşləri, vəhşi həyat və təbiət gəzintiləri üçün mühitin yaradılması, yerli flora və fauna ilə əlaqəli turların təşkili;

- Qarabağ iqtisadi rayonunda turizmin inkişafını təmin etmək üçün marketinq strategiyası qurulmalı və müvafiq marketinq siyasəti həyata keçirilməlidir;

- Turizmin inkişafına mane olan amilləri aradan qaldırmaq və bəzi qeyri-ənənəvi turizm xidmətlərini bazara çıxarmaq;

- Regionda turist sayını artırmaq məqsədilə ilin bütün fəsillərinə uyğun turizm infrastrukturunun inkişaf etdirilməsi;

- Bölgənin görməli yerlərini nümayiş etdirən, yerləşdirmə, nəqliyyat və digər turist xidmətləri haqqında məlumat verən hərtərəfli turizm veb-saytının hazırlanması;

- Qarabağı mütləq ziyarət edilməli yer kimi tanıtmaq üçün turoperatorlar, turizm agentlikləri və aviaşirkətlərlə əməkdaşlıq;

- Azərbaycan mətbəxini Qarabağda tanıtmaq üçün kulinariya festivalları təşkil etmək, yerli məhsul istehsalçıları ilə əməkdaşlıq edərək turizm paketləri yaratmaq;

- Müxtəlif mövzularda turizm paketləri (mədəniyyət, macəra, təbiət, tarix) hazırlayıb yerli və beynəlxalq bazarlara təqdim etmək;

- Regionda qış turizmini inkişaf etdirmək üçün dağ xizək mərkəzləri, buz xizəyi yolları və digər qış idman növləri üçün infrastruktur yaradılması;

- Macəra səyahətçiləri, mədəniyyət və təbiət həvəskarları kimi xüsusi turist seqmentlərinə yönəlmiş, hədəflənmiş rəqəmsal marketinq kampaniyalarına başlamaq.

Mövzu boyunca biz Qarabağ iqtisadi rayonunda turizm sektorunun inkişaf potensialını, mövcud olan problemləri və onların həlli yollarını nümayiş etdirərək, bu proseslərə bir neçə aspektdən baxmağa çalışdıq. Bu sahədə həyata keçirilən təşəbbüslər Qarabağ iqtisadi rayonunda turizm sektorunun uzunmüddətli və davamlı inkişafına zəmin yarada bilər.

# XÜLASƏ

Qarabağ regionu Azərbaycanın mühüm turizm potensialına malik strateji ərazilərdən biridir. Regionun turizm sektorunun inkişafı yalnız iqtisadi amillərlə məhdudlaşmır, eyni zamanda sosial, ekoloji və mədəni sahələrdə geniş dəyişikliklərə səbəb olur. Lakin dayanıqlı inkişafın təmin edilməsi üçün bir sıra fundamental problemlərin həlli vacibdir.

Turizmin səmərəli inkişafı üçün infrastrukturun mövcudluğu əsas şərtlərdən biridir. Uzun illər işğal altında qalmış Qarabağda bu sahədə ciddi çatışmazlıqlar mövcuddur. Regionun bərpası çərçivəsində hava limanlarının, magistral yolların və dəmir yolu xətlərinin yenidən qurulması mühüm irəliləyişlər yaradır. Füzuli hava limanının istifadəyə verilməsi regiona turist axınının artmasına imkan yaradır. Bununla yanaşı, effektiv nəqliyyat və kommunikasiya sistemlərinin tam təşkili ilə turizm sektorunun inkişafını daha dinamik təchiz eləmək mümkündür.

Regionun unikal təbii və mədəni irsi onun turizm potensialını artıran əsas amillərdəndir. Qarabağın geniş meşə massivləri, mineral suları və tarixi abidələri turistlər üçün mühüm cazibə mənbəyidir. Bununla yanaşı, turizmin ekoloji tarazlığını pozmadan inkişafı mühüm məsələlərdən biridir. Dayanıqlı turizmin təşviqi üçün ekoloji normativlərə riayət edilməli, təbii ehtiyatların qorunması və biomüxtəlifliyin saxlanması prioritet kimi qəbul edilməlidir.

Turizmin inkişafı üçün təhlükəsiz mühitin yaradılması vacibdir. Regionda post-münaqişə dövrü nəzərə alındıqda, turizm sektorunun inkişafı təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə birbaşa bağlıdır. Bundan əlavə, yerli əhalinin turizm iqtisadiyyatına inteqrasiyası sosial rifahın artmasına töhfə verə bilər. Turizm sahəsində insan resurslarının inkişafı, peşəkar kadr hazırlığı və yerli icmaların iqtisadi fəaliyyətə cəlb olunması bölgədəki sosial sabitliyi gücləndirə bilər.

Qarabağ regionunda turizmin dayanıqlı inkişafı üçün kompleks yanaşma tələb olunur. İnfrastrukturun bərpası, ekoloji tarazlığın qorunması, mədəni irsin təbliği və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi bu sahənin uzunmüddətli inkişafını təmin edə bilər. Qarabağın strateji mövqeyi və zəngin turizm resursları onu regionun aparıcı

turizm mərkəzlərindən birinə çevirmək potensialına malikdir. Müvafiq siyasətlərin həyata keçirilməsi və davamlı inkişaf yanaşmasının tətbiqi Qarabağın turizm sahəsində gələcək perspektivlərini qüvvətləndirəcəkdir.

## SUMMARY

The Karabakh region is one of Azerbaijan's strategically important areas with significant tourism potential. The development of the tourism sector in the region is not limited to economic factors alone; it also leads to extensive changes in social, ecological, and cultural spheres. However, ensuring sustainable development requires addressing several fundamental issues.

The availability of infrastructure is one of the key conditions for the effective development of tourism. Karabakh, which remained under occupation for many years, faces serious deficiencies in this area. As part of the region's restoration, the reconstruction of airports, highways, and railway lines is creating significant progress. The commissioning of Fuzuli Airport facilitates an increase in tourist inflow to the region. Additionally, the full organization of efficient transportation and communication systems can further enhance the dynamic development of the tourism sector.

The region's unique natural and cultural heritage is one of the main factors that enhance its tourism potential. Karabakh's vast forest areas, mineral springs, and historical monuments serve as major attractions for tourists. However, the development of tourism without disrupting ecological balance is a crucial issue. To promote sustainable tourism, ecological regulations must be observed, natural resources must be protected, and biodiversity must be preserved as a priority.

Creating a safe environment is essential for the development of tourism. Considering the post-conflict period in the region, the advancement of the tourism sector is directly linked to strengthening security measures. Moreover, integrating the local population into the tourism economy can contribute to improving social welfare. The development of human resources in the tourism sector, professional training, and the involvement of local communities in economic activities can reinforce social stability in the region.

A comprehensive approach is required for the sustainable development of tourism in the Karabakh region. The restoration of infrastructure, preservation of

ecological balance, promotion of cultural heritage, and enhancement of security measures can ensure the long-term growth of this sector. Karabakh's strategic location and rich tourism resources have the potential to transform it into one of the leading tourism centers in the region. The implementation of appropriate policies and the application of a sustainable development approach will strengthen Karabakh's future prospects in the tourism sector.

# İSTİFADƏ OLUNAN ƏDƏBİYYATLAR


1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa Milli Prioritetlər". Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı-02.02.2021, № 2469.
2. "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı-19.04.2021.
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı-07.07.2021, № 1386
4. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa Dair I Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı-22.07.2022, № 3378.
5. Abadov M.K. "Azərbaycan turizmi və onun inkişaf problemləri". Dərs vəsaiti. "Şərq-Qərb nəşriyyatı", 2014, 176 s.
6. Ağasiyev İ., Osmanova A., (2024). Ermənistan SSR-in Azərbaycan SSR-ə Qarşı Ərazi İddialarında Qaragöl Məsələsi. "Akademik Tarih ve Düşünce Dergisi", 2024, 11 (4), 2497-2512, 2510 s.
7. Ağbabalı A., Yunusoğlu Q., Həkəri çayı hövzəsinin müasir ekoloji səciyyəsi. 2024, 245 s. https://www.researchgate.net/profile/Sabina-Jafarzadeh/publication/389518451_The_impact_of_global_climate_changes_on_the_ecological_environment/links/67c6672996e7fb48b9d80e6a/The-impact-of-global-climate-changes-on-the-ecological-environment.pdf#page=220
8. Bilalov B.Ə., Gülalıyev Ç.G. "Turizmin əsasları". Dərs vəsaiti. "QHT nəşriyyatı", 2015, 42 s.
9. Əliyev B., Həsənov Ş., "Qarabağ: maddi, mədəni və mənəvi irs". 2023 https://www.academia.edu/118535097/%C6%8Fkin%C3%A7ilik_QARABA%C4%9E_maddi_m%C9%99d%C9%99ni_v%C9%99_m%C9%99n%C9%99vi_irs_tarixi_etnoloji_t%C9%99dqiqat_II_Kitab_Bak%C4%B1_2023_400_s%C9%99h.
10. Əliyev İ., Babaxanov N., "Qarabağın turizm potensialı". Türküstan. 2020.

11. Əliyev Ş., ”Qarabağ iqtisadi rayonunda yaşıl enerji resurslarından səmərəli istifadənin aspektləri”. 2024.
12. İmanlı M.N., “Qarabağda ekosid”. DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.111-117.
13. Kərimov T.A.,”Azərbaycanın mühüm ornitoloji əraziləri”. 2011, 108 s.
14. Məhərrəmova S., “19-20-ci əsrin əvvəllərində Qarabağ və Şərqi Zəngəzurda sənətkarlıq və ticarət”. 2023, 240 s.
15. Məmmədov X.B., “Azad olunmuş ərazilərdə çayların ekocoğrafi vəziyyəti”. 2024, 57 s.
16. Məhərrəmoğlu, M. “Qarabağ və Şərqi Zəngəzurda böyük turizm potensialı var”. Xalq qəzeti. 2022.
17. Məlikova-Qurbanova E., “Qarabağda muzeylərin dirçəldilməsi və turizmin inkişafına təsiri”. Azərbaycan Dövlət və İncəsənət Universiteti, Muzeyşunaslıq kafedrası. 2023.
18. Məmmədov N., “Post müharibə dövründə Qarabağda quruculuq və tərəqqi prosesi”. Optimis. 2022, 6 s.
19. Məsimli Ə., “Qarabağın işğalının iqtisadi nəticələri”. 2007. http://www.anl.az/el/q/qarabag_6/q-12.htm
20. Niftəliyev N., “Turizmin davamlı inkişafı və onun sosial proseslərə təsiri”. 2023.
21. Nağıyev F., “Azərbaycanın turizm sənayesi və Qarabağ bölgəsində yeni imkanlar”. Dövlət Turizm Agentliyi. 2023.
22. Nağıyev R., Şuşanın mədəni irsi və onun bərpa perspektivləri. *Azərbaycan Mədəniyyət Jurnalı, 12*(1), 2020, 45-58.
23. Orucova Ş. “Naxçıvan MR-da landşaft-ekoloji müxtəlifliyin qorunmasında xüsusi mühafizə olunan ərazilərin rolu”. 2024. DOI: https://doi.org/10.36719/2707-1146/40/44-49.
24. Soltanova H.B., “Azərbaycan Respublikasının turizmi və onun inkişafı”. 2014, 340, 345, 346 s.

25. Sultanova R., İmamverdiyeva Ç., “Qarabağ regionunda mədəni turizm destinasiyasının perspektiv inkişafı”. 2023.
26. Vəliyeva K.M., “Qarabağ iqtisadi rayonunda turizmin inkişafının Azərbaycan iqtisadiyyatına təsiri”. 2024.
27. Erdogan N., Çevre ve (Eko) Turizm, Yayın evi, Mart 2003, Ankara, s 99-100.
28. Mirzəyev, F. (2024). *Sustainable tourism development in post-conflict regions: Case study of Karabakh*. Baku Tourism Institute.
29. Heritage Azerbaijan., “Azerbaijan’s regional tourism strategy 2020-2023”, 2020.
30. Honey M. *Ecotourism and sustainable development: Who owns paradise?* Island Press. 2008.
31. Cohen E., The sociology of tourism: Approaches, issues, and findings. *Annual Review of Sociology, 10*, 1984, 373–392.
32. Causevic S., Lynch, P. Post-war tourism development in Bosnia and Herzegovina: The quest for rebuilding trust. *Annals of Tourism Research, 38*(2), 2011, 345-367.
33. Shcherbakova, N. State and Trends of Sustainable Development of Tourism in Ukraine and the World. Journal of Environmental Management and Tourism (JEMT), 2018. 9(08 (32)), 1712-1724.
34. Saarinen, J. (2018). *Geographies of tourism development and planning* (səh. 347). Tourism Geographies,19(3), 307-317. Oulu University Repository. https://scholar.google.com/citations?user=jHRagSgAAAAJ&hl=en.
35. Schmithüsen, F. J. (2013). *Three hundred years of applied sustainability in forestry*. ETH Zurich, Swiss Federal Institute of Technology.
36. Sachs, J. D. *The age of sustainable development*. Columbia University Press, 2015. 37. Salazar N., Community-based tourism in Tanzania: Maasai perspectives. *Journal of Sustainable Tourism, 20*(3), 2012, 415-432.
37. Urry, J. (2007). “*Mobilities”,* 2007 (səh.71- 90). Polity Press.
38. UNESCO. Petra and its historical restoration. *World Heritage Bulletin, 15*(2), 2021, 78-95.

39. Vucetic, A. Š. International Journal of Tourism Research, 2018, 20(3), 317-325.
40. Visit Estonia. The role of digitalization in Estonia's tourism sector. *Estonia Tourism Review, 27*(1), 2023, 100-120.
41. Yoshimoto, T. Smart tourism and technological integration: Japan's experience, 2022. Tokyo: Tourism Innovation Press.
42. Wang, J. Marketing and Management of Innovations, 2017, 3, 53-59.
43. Weaver, D. B. (2001). *Ecotourism*. J. Wiley.
44. https://president.az - Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı
45. http://gsaz.az - Azərbaycan Coğrafiya Cəmiyyətinin rəsmi saytı
46. https://www.stat.gov.az - Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı
47. http://www.eco.gov.az – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi saytı
48. https://www.virtualkarabakh.az/
49. https://anama.gov.az/
50. https://president.az/az/articles/view/54040
51. https://azerbaijan-news.az/az/
52. https://economiczones.gov.az/